# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 27 (3540) Cümə axşamı / 1-7 avqust 2024-cü il Qiyməti 40 qəpik


MÜSAHİB

## Qərbin qarşısında başlıca əngəl Azərbaycandır



**Natiq Miri,**
politoloq

***Son həftələrdə Qərb dairələri tərəfindən Azərbaycanın milli maraqlarını təhdid edən bir sıra addımların və bəyanatların yenidən şahidi oluruq. Bu, xüsusilə Ermənistana hərbi yardımların ayrılması, birgə hərbi təlimlərin təşkili fonunda özünü büruzə verir. Nəticədə ikitərəfli danışıqlar formatında sülh prosesində müşahidə edilən irəliləyiş təhdid altına düşür. Digər tərəfdən, məlum siyasət özünü Fransanın təşkilatçı dövlət olaraq Olimpiadada Bakıya münasibətində də büruzə verir. Bu və digər məqamlarla bağlı suallarımızı politoloq Natiq Miri cavablandırır.***

*Ermənistanın, qlobal güclərin Azərbaycan əleyhinə başlatdığı qərəzli proses dünyada ifşa olunmalıdır*

Səh. 3

# Separatçılara "azadlıq" tələbi

***COP29 ərəfəsində dünyadakı erməni lobbisi və havadarları Azərbaycana qarşı növbəti təzyiq dalğasını işə salmağa çalışırlar. Bu məsələdə daha çox hazırda ədalət məhkəməsi qarşısında cavab verəcəkləri günü gözləyən erməni separatçılarının azadlığa buraxılması məsələsi xüsusi olaraq qabardılır. Bu məsələdə ən çox fəallığı isə həmişə olduğu kimi Makron Fransası oynayır. Professor Elşad Mirbəşir bildirib ki, bir sıra dairələr, xüsusilə də Fransa COP29-un Azərbaycanda keçiriləcəyi faktını həzm edə bilmir. Onun sözlərinə görə, bu ölkələr Azərbaycanın COP29-a ev sahibliyinə hər vasitə ilə kölgə salmağa çalışırlar: "İndiki ərəfədə separatçıların azadlığa buraxılması məsələsinin qaldırılması, bu sual ətrafında genişmiqyaslı siyasi spikulyasiyaların aparılması bir daha bunu sübut edir.***




İndi həbsdə olan separatçılar 30 il boyunca Azərbaycan xalqına sözün əsl mənasında zülm ediblər, xalqımıza qarşı sistemli soyqırımı həyata keçiriblər, Azərbaycanın dövlət təhlükəsizliyinə birbaşa təhdid yaradıblar. Biz hər zaman beynəlxalq çərçivəsində olduqca humanist davranmışıq, müvafiq beynəlxalq konvensiyaları nəzərə almışıq. Lakin Ermənistan tərəfi özünün işğalçılıq siyasətində israrlı olduğunu hər davranışı ilə nümayiş etdirirdi. Məhz Qərb dairələri elə Ermənistanla tandem şəklində Azərbaycana qarşı qərəzli siyasi mövqelərin formalaşdırılmasına cəhdlər edirlər. Vaxtilə bu separatçılar üzərindən də spekulyasiyalar edirdilər: guya hüquqları və təhlükəsizlikləri ilə bağlı problem var, bu problemin aradan qaldırılması üçün beynəlxalq mexanizmlər tətbiq etmək istəyirdilər...».

E.Mirbəşir qeyd edir ki, Azərbaycan 2023-cü ilin sentyabr ayında antiterror tədbirləri görərək separatizmə son qoydu, təhlükəsizliyinə qarşı olan təhdid aradan qaldırdı və uzun illər sistemli şəkildə Azərbaycan xalqının qanını tökən, Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirən cinayətkarları da həbs edərək öz gücünü, iradəsini nümayiş etdirdi. O, hesab edir ki, bu həm də dövlətin gələcək təhlükələrin preventiv olaraq qarşısının alınması istiqamətində atdığı addım idi. Onun sözlərinə görə, bu gün həbsdə olan separatçılar azadlıqda olsaydı, mütləq şəkildə ölkəmizə qarşı yenə də olduqca dağıdıcı, təhlükəli fəaliyyətlərini davam etdirəcəkdilər:

"Onların bu gün azadlığa buraxılması istəyi həm də ona hesablanıb ki, onları yenidən reablitasiya etsinlər, Azərbaycana qarşı yeni çıxışlara hazırlasınlar. Onların separatizm, terrorizm, soyqırımların törədilməsi, ümumiyyətlə qanlı cinayətlərin törədilməsi sahəsində təcrübələri mövcuddur. Elə bu təcrübəni də Avropa istifadə etmək istəyir. Ayrı-ayrı hallarda biz görmüşük ki, bu cür insanlar özlərinin cinayətkar xarakterlərinə uyğun həmişə istifadə olunur. Rəsmi Parisin əsas istəyi ondan ibarət idi. Onlar Azərbaycan xalqına, dövlətinə qarşı törətmiş olduqları cinayətlərə görə layiqli cəzalarını alacaqlar. Azərbaycan onları tam hüquq çərçivəsində cəzalandıracaq. Ölkəmiz hüquqa hörmət edən hüquqi dövlətdir, burada yalnız qanunlar işləyir. Erməni separatçıları da elə Azərbaycan qanunları çərçivəsində öz cəzalarını alacaqlar.

Səh. 3



*Azərbaycan 2023-cü ilin sentyabr ayında antiterror tədbirləri görərək separatizmə son qoydu*

*Onların məhkəməyə çıxarılması və uzun müddətə azadlıqdan məhrum edilməsi də zaman məsələsidir*

*Ruben Vardanyanın ailəsi bu istiqamətdə 100 minlərlə dollar xərcləyir*

MÜSAHİB



**Etibar Məmmədov,**
Azərbaycan Milli İstiqlal Partiyasının lideri, siyasətçi

■ Nə qədər gərginlik olsa da, son proseslərin genişmiqyaslı savaşa və dünya müharibəsinə çevrilməsi ehtimalı yoxdur. İran bir az hay-küy edib yerində oturacaq

■ İstər Ermənistandakı proseslərin, istərsə də Gürcüstandakı seçkilərin nə ilə nəticələnəcəyini söyləmək çətindir

■ Uzun müddətdir ki, Birləşmiş Ştatlarda gənc, enerjili və əksəriyyət tərəfindən qəbul edilən bir lider üzə çıxa bilmir

Səh. 6

GÜNÜN FOTOSU...



**Misirli Esraa Owis qadınların uzunluğa tullanma yarışında iştirak edir**

GÜNÜN SİTATI

*"Ermənistan konstitusiyasındakı ərazi iddiaları sülhə əsas maneədir"*



**Elçin Əmirbəyov,**
Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi

KARİKATURA




**Sərhəddə atışma var deyildikdə ağla gələn mənzərə**

## Dünyada daha çox sel müşahidə edilən ölkələrdənik

**Səid Səfərov,**
coğrafiya elmləri doktoru

Azərbaycanda iqlim şəraitinin dəyişməsinin əsas səbəbi bura daxil olan müxtəlif tip hava kütlələridir.

Səh. 4

STATİSTİKA



**■ 2024-cü ilin iyul ayında yaşa görə pensiya alanların sayı 709 800 nəfərdən çox olub.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib.

Bildirilib ki, onların 42,-5%-ni kişilər, 57,5%-ni isə qadınlar təşkil edib.



Səh. 7

## Bazarda payı artan Çin avtomobilləri

## PREZİDENTİN İŞ GÜNÜ

### Sərəncam



**Rafael Baba oğlu Hüseynov "Şərəf" ordeni ilə təltif edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.**

Sərəncama əsasən, o, Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə təltif edilib.

***

Tofiq Hüseyn oğlu İbrahimov Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

# Prezident İsmayıl Berdiyevin yaxınlarına başsağlığı verib

**Prezident İlham Əliyev Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyevin vəfatı ilə əlaqədar doğmalarına və yaxınlarına başsağlığı verib.**

Başsağlığında deyilir:

"Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Əliyeviç Berdiyevin vəfatı ilə bağlı kədərli xəbəri dərin hüznlə qarşıladım.

Hacı İsmayıl Azərbaycanın böyük dostu idi. O, Azərbaycan ilə Rusiya arasında dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafına sanballı töhfə verib. Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsində çoxillik məhsuldar fəaliyyətinə görə o, Azərbaycan Respublikasının "Dostluq" ordeni ilə təltif edilib.

Hacı İsmayılın dini dözümlülük və tolerantlıq, dinlərarası və sivilizasiyalararası dialoqun dərinləşdirilməsinin inkişafı istiqamətində geniş dini fəaliyyəti ona təkcə öz ölkəsində deyil, onun hüdudlarından kənarda da dərin hörmət qazandırıb.

Hacı İsmayıl ilə görüşləri və söhbətləri, xüsusən bu ilin mayında Bakıdakı sonuncu görüşü həmişə böyük səmimiyyətlə xatırlayıram. İsmayıl Əliyeviçin nurlu xatirəsi qəlblərimizdə daim yaşayacaq. Sizə səmimi-qəlbdən başsağlığı verir və bu ağır itki ilə əlaqədar ağrı-acınızı bölüşür, sizinlə birlikdə kədərlənirəm.

Allah rəhmət eləsin!"

# Ərazi iddiaları sülhə əsas maneədir

**Ermənistan konstitusiyasında təsbit edilmiş Azərbaycana qarşı ərazi iddiaları Bakı ilə İrəvan arasında sülh prosesində gələcək irəliləyiş üçün yeganə maneə olaraq qalır. Bunu "Azadlıq" radiosuna Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi, səfir Elçin Əmirbəyov deyib.**

"Söhbət Konstitusiyanın Azərbaycanın təzyiqi altında dəyişdirilməsindən deyil, seçicilərin bir suala cavab verməsindən gedir: siz sülh istəyirsiniz, yoxsa Azərbaycanla yeni qarşıdurma üçün fürsət? Əgər Ermənistan hakimiyyəti sualı bu cür qoyarsa, düşünürəm ki, referendumda iştirak edəcək Ermənistan vətəndaşlarının əksəriyyəti sülhü dəstəkləyəcək", - o bildirib.

"Biz əmin olmaq istəyirik ki, sülh sazişi keçmişdə olduğu kimi gələcəkdə revanşizmi və ya Azərbaycana qarşı hər hansı ərazi iddialarını mümkünsüz edəcək bir növ sarsılmaz sazişdir", - E.Əmirbəyov əlavə edib.

Azərbaycan Prezidentinin nümayəndəsinin sözlərinə görə, hazırda danışıqları asanlaşdıran amillərdən biri də odur ki, hər iki tərəf qalan məsələlərdən ən mübahisəli olanını - Azərbaycanın qalan hissəsini onun eksklavı olan Naxçıvanla birləşdirəcək nəqliyyat marşrutlarının təşkili, yəni Zəngəzur dəhlizi məsələsini sonrakı mərhələdə həll etməyə razılaşıb.

"Biz qarşılıqlı razılaşma əsasında bu bəndi sülh sazişindən çıxarmaq və onun müzakirəsini sonrakı mərhələyə keçirmək qərarına gəldik. Beləliklə, biz onu mətndən çıxarmağa qərar verdik, lakin bunun ölkələrin gələcəkdə müzakirə etmək və ümumi razılığa gəlmək üçün qayıda biləcəyi məsələlərdən biri olması faktını heç də mətndə əks etdirə bilərik", - o qeyd edib.

HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor: Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Makronun qorxulu yuxusu

***Parisdə davam edən Olimpiya Oyunları Fransa Prezidenti Emmanuel Makron üçün əsl kabusa çevrilib. Ardıcıl olaraq beynəlxalq siyasətdə uğursuzluqlara imza atan Makron Fransası bu oyunlara özünün imicini düzəltmək üçün bir şans kimi baxırdı. Açılış mərasimindən başlayaran günlərlə davam edən rəzilliklər bu arzunu xam xəyala çevirib. Dünya mətbuatı Parisin səhvlərini üzünə vurmaqda davam edir.***



### Şübhəli xərclər

**İndi isə Paris Olimpiadasına xərclənən vəsaitlə bağlı rüşvət, talama və digər mənfi amillər ön plana çıxarılır. Paris Olimpiadasını reklam edənlər bunun ucuz və "büdcəyə uyğun" olacağını vəd edirdilər.**

"New York Times" yazır ki, Beynəlxalq Olimpiya Komitəsinin 2019-cu ildə təqdim etdiyi xərclərin azaldılması islahatlarını tam şəkildə yaşayan ilk şəhər olan Parisdə keçiriləcək oyunlar üçün qanun layihəsi ən azı 8,87 milyard dollar olmalı idi. Reallıqda bu rəqəm həddindən artıq çoxdur. Bundan əlavə, bəzi məqamlar qeyri-şəffaf olaraq qalmaqdadır. "New York Times"a görə, son xərclər smetasına təxminən, 45 000 təhlükəsizlik işçisi, polis kordonları arxasında şəhərin bəzi yerlərində bir həftəlik mağazaların bağlanmasına görə kompensasiya və ya üzgüçülük yarışları üçün su hazırlamaq üçün 1,4 milyard dollarlıq layihə daxil deyil". Fransanın paytaxtı Parisdə keçirilən XXXIII Yay Olimpiya Oyunlarında rüsvayçı olaylar yaşanır. "Haber Global" xəbər verir ki, Olimpiadanın başladığı müddətdə Parisdəki restoranların, o cümlədən, türk sahibkarlara məxsus iaşə obyektlərinin fəaliyyətində durğunluq hökm sürür. Qeyd olunub ki, Olimpiadanın davam etdiyi müddətdə Parisə turist axınının olacağına dair gözləntilər doğrulmayıb: "Sahibkarlar şəhərə 15 milyon turistin gələcəyi ilə bağlı proqnozların fonunda hazırlıqlarını genişləndirmişdilər. Olimpiada çərçivəsində Parisə turist axınını təmin etmək mümkün olmadı. Restoranlarda masaların sayının və personalın azaldılmasına baxmayaraq, gözləntilər özünü doğrultmadı".

Sahibkarlar deyirlər ki, adətən, iyulun sonu və avqust ayında Parisdə turist sayı pik həddə çatır: "Bu dəfə isə əvvəlki illərə nisbətən turistlərin sayında kəskin azalma var".

### Olimpiya hərəkatının simvollarına etinasızlıq

**Paris Olimpiadasına kölgə salan digər bir məqam qadın boks yarışlarında yaşanan qalmaqaldır. Xatırladaq ki, avqustun 1-də 66 kiloqram çəki dərəcəsində qadınlar arasında boks üzrə Olimpiya turnirində 1/8 final mərhələsi baş tutub. İdmançılardan biri anadangəlmə yüksək testosteron səviyyəsinə malik olan əlcəzairli İman Xelif olub.** Onun qadın yarışlarına buraxılması ilə bağlı mübahisələrə baxmayaraq, BOK onun qadın olduğu pasport məlumatlarını tanıyıb. Xelif italyan Anjela Karinini məğlub edib. Karini döyüş başlayandan cəmi 46 saniyə sonra bir neçə ağrılı zərbə alaraq geri çəkilib. Onlardan biri nəticəsində Ancelanın burnu sınıb. O, rəqibinin əlini sıxmaqdan imtina edib və göz yaşları içində rinqi tərk edib.

Döyüş dünyası Beynəlxalq Olimpiya Komitəsinin Xelifin Parisdəki Oyunlarda iştirakına icazə vermək qərarına qəzəblənib. Əvvəllər ABB BOK ilə əməkdaşlıq edərkən, eyni anomaliyaya malik olan Xelif və tayvanlı Lin Yutingin yarışmasına icazə verilmirdi. ABB və Rusiya Boks Federasiyasının prezidenti Umar Kremlev artıq bu məsələ ilə bağlı öz fikirlərini bildirib.

"Kütləvi pozuntular, şikayətlər, idmançıların təhqir edilməsi, təhlükəsizliyin olmaması və hətta Olimpiya hərəkatının simvollarına etinasızlıq, transgender idmançıların iştirakı və dinə hörmətsizlik indi Parisdə keçirilən Olimpiya Oyunlarında baş verənlərin yalnız kiçik bir hissəsidir", - Kremlev öz Teleqram kanalında yazıb. "Onlar qadın idmanını öldürürlər" - deyə o bildirib. Boks üzrə keçmiş mütləq dünya çempionu Kostya Tszyu hesab edir ki, biz artıq BOK-dan adekvat hərəkət görməyəcəyik. "Kişinin boks matçında qadınla döyüşməsi normal deyil! Əgər BOK belə hallara icazə verirsə, onda biz onlar haqqında nə deyə bilərik? Davamlı olaraq eyni şeyi, dəli olmuş eyni insanları müzakirə edirik".

Rusiya Güləş Federasiyasının prezidenti Mixail Mamiaşvili də narazıdır. O hesab edir ki, indi belə idmançılara bütün növlərdə - üzgüçülükdən tutmuş ağır atletikaya kimi icazə veriləcək.

"Əminəm ki, əlcəzairli idmançı ilə bağlı bu vəziyyət BOK tərəfindən gizlənəcək, heç bir təhlil aparılmayacaq. BOK-un mövqeyi ondan ibarətdir ki, insanlar bu şeylərlə yaşasınlar ki, bu, onlar üçün normaya çevrilsin. Boks yalnız başlanğıcdır. İndi kişilər qadınlarla üzgüçülük və qaçış yarışlarında olacaqlar, qızlarla çəki qaldırmağa başlayacaqlar. Bəs indi bu Əlcəzair idmançısına nə ad verməliyik?". Keçmiş orta çəkidə UFC çempionu İsrael Adesanya da qəzəblənir. "Kişilər qadınlarla boks etməməlidirlər", - Adesanya sosial şəbəkələrdə yazıb.

### "Bu, bizim üçün təhqir idi"

**Təşkilatçılıq və gigiyena qaydalarının gözardı edilməsi, şəxsi ambisiyalar uğruna idmançıların həyatının və sağlamlığının riskə atılması onları da qəzəbləndirib.** İspaniyalı triatlonçu Maryam Kasilyas İspaniyanın "Marca" radiostansiyasına müsahibəsində deyib ki, Parisdə keçirilən Olimpiya Oyunlarının təşkilatçıları idmançıların imicinə görə daha çox narahat olduqları üçün onların səhhəti barədə düşünməyiblər.



Çayda suyun keyfiyyətsiz olması səbəbindən üzgüçülük məşqlərinin ləğv edilməsinə və kişilərin yarışının təxirə salınmasına baxmayaraq, triatlon yarışı Parisdə baş tutub. Suyun çirklənməsinə səbəb kimi əvvəllər Parisdə yağan yağış göstərilirdi. Təşkilatçılar müsabiqəni keçirmək üçün icazəni yalnız çərşənbə günü səhər alıblar.

Onun fikrincə, sağlamlıq hər şeydən əvvəl olmalıdır. "Təşkilatçılar bütün suyun keyfiyyət testlərinin idmançılar üçün edildiyini iddia etməyə çalışdılar, lakin əslində onlar öz imicini qoruyub saxlamağa yönəliblər", Kasilyas bildirib. "Onlar ümumiyyətlə idmançılar haqqında düşünmürdülər, daha çox səhnə haqqında, imic haqqında, hər şeyin gözəl görünməsi, Paris Oyunlarının təşkilatçılarının ilk açılışdan arzuladığı Sena çayını satmaq haqqında düşünürdülər və idmançıların sağlamlığını heç düşünmürdülər", - deyə idmançı bildirib. O əlavə edib ki, təşkilatçıların ehtiyat planı olmalı idi, çünki onların hazırlanması üçün səkkiz il var idi. Lakin Senada suyun keyfiyyətinin yoxlanılması çimməyə 24 saat qalmış və şəhərə yağış yağmazdan bir gecə əvvəl aparılıb ki, bu da vəziyyəti dəyişə bilər. "Biz bir az sirkdəki təlxəklərə bənzəyirik: bizi oraya qoydular və bu, təhqiramizdir", - deyib idmançı.

VTM telekanalında yarış baş tutmasaydı, təşkilatçılar üçün biabırçılıq olardı deyən belçikalı idmançı Jolien Vermeulen də təşkilatçıları tənqid edib.

"Mən su uddum və sabaha qədər bilməyəcəyik ki, xəstələndim, ya yox... Körpünün altında üzəndə iy aldım və düşünməməli olduğum şeyləri gördüm", - deyib.

Bəzi idmançılar yarış zamanı və ya yarışdan dərhal sonra xəstələniblər. Kanadalı triatlonçu Tayler Mislavçuk finişə çatdıqdan dərhal sonra canlı televiziyada qusub. Qazaxıstan millisində mübarizə aparan Yekaterina Şabalina birinci mərhələdən sonra özünü pis hiss etdiyi üçün yarışı tərk edib.

O, Sport24-ə müsahibəsində deyir: "Mən Senadan gələn suda boğuldum, bundan sonra üzgüçülüyün qalan hissəsi üçün qusmağa başladım".

Göründüyü kimi, sadalanan faktlar Paris olimpiya oyunlarında yaşanan biabırçılıqların çox kiçik bir hissəsidir. Təbii ki, bütün bunlara görə başlıca məsuliyyət Fransa hökumətinin üzərindədir. Eynilə Makron Fransasının dünyada ədalətsizliyə, separatizmə və münaqişələrin alovlanmasına dəstək verdiyi kimi...

*✍ Ləman Əliyeva*

# Daha çox dövlət "Şimal-Cənub" dəhlizinə maraq göstərir

***Azərbaycan Prezidenti İlham Əliyev Sergey Şoyqu ilə dəfələrlə söhbət edib. Əvvəllər onu Bakıda Rusiya Müdafiə Nazirliyinin rəhbəri qismində qəbul ediblər və danışıqların hər biri doğun və konstruktiv olub. Sergey Şoyqunun yeni statusu və Vladimir Putinin ona verdiyi xüsusi səlahiyyətlər müzakirə edilən məsələlərin əhatə dairəsini xeyli genişləndirib.***

Bu kontekstdə postsovet məkanında, Avrasiyanın cənub hissəsində və qlobal miqyasda gərginliyin artması fonunda yaranan vəziyyətin Rusiya və Azərbaycan kimi tarixən dostluq əlaqələrinə malik olan strateji tərəfdaşlardan təhlükəsizliyin möhkəmləndirilməsi, həmçinin milli maraqların və dövlət suverenliyinin müdafiəsi üzrə ən geniş spektrdə əlaqələndirilmiş yeni qərarların işlənib hazırlanmasını tələb etdiyini qeyd etmək lazımdır.

**■ Bu fikirləri AZƏRTAC-la rusiyalı politoloq, "PolitRus" ekspert-analitika mərkəzinin rəhbəri Vitali Arkov Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun Azərbaycana səfərini və Prezident İlham Əliyevin onu qəbul etməsini şərh edərkən bölüşüb.**



**Vitali Arkov,**
rusiyalı politoloq

Ekspert Sergey Şoyqunun Tehrana səfərindən sonra Bakıda keçirilən yüksəksəviyyəli görüşdə dövlətimizin başçısı ilə əsas həlqəsi Azərbaycan olan və artıq iştirakçı ölkələrin tərəqqisinin ciddi hərəkətvericisinə çevrilən multimodal "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafını müzakirə etməsini tamamilə məntiqli adlandırıb. "Tamamilə aydındır ki, getdikcə daha çox dövlət və ərazi "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə əlaqə qurmağa çalışır. Biz BRICS, ŞƏT və Aİİ tərəfindən böyük marağın olduğunu müşahidə edirik. Azərbaycan Qlobal Cənubun əsas dünya proseslərinə təsirinin artması ilə eyni vaxtda siyasi, iqtisadi və ekoloji (COP29-a ev sahibliyi edən ölkə kimi) avanqardda xüsusi yer tutur", -deyə agentliyin həmsöhbəti qeyd edib. V.Arkov ehtimal edir ki, Tehrana səfərin yekunlarına dair Bakıda keçirilən görüşdə təkcə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində deyil, həm də xüsusi əhəmiyyət kəsb edən digər sahələrdə üçtərəfli əməkdaşlıq məsələləri müzakirə olunub. Onun sözlərinə görə, bu məsələ Moskva ilə İrəvan arasında münasibətlərdə artan problemlər nəticəsində gündəmə gəlib. Belə ki, Ermənistan əvvəllər Rusiya ilə İran arasında ictimaiyyətə açıqlanmayan təmaslarda yaxından iştirak edib, lakin sonradan rəsmi şəkildə qərbyönlü xarici siyasət kursu götürüb və əlbəttə ki, öz ərazisini ABŞ və Fransanın bölgədəki çirkin maraqlarının forpostuna çevirməyə imkan verib".

> "
> *Qlobal vəziyyət Rusiya və Azərbaycandan təhlükəsizliyin möhkəmləndirilməsinə dair yeni əlaqələndirilmiş qərarlar tələb edir*

"Demək olar ki, Ermənistanın tezliklə Rusiya ilə birlikdə tarixən əsaslandırılmış yola qayıdacağı dəqiqdir. Lakin İrəvanın qeyri-sabitliyi və etibarsızlığı nəticəsində Moskva və Tehran seçimini əldə olunmuş razılaşmalara ciddi əməl edən və beynəlxalq statusda bərabərhüquqlu tərəfdaş olan Bakının xeyrinə əvvəlcədən müəyyən ediblər", -deyə rusiyalı politoloq sözlərinə yekun vurub.

# Qərbin qarşısında başlıca əngəl Azərbaycandır

***Son həftələrdə Qərb dairələri tərəfindən Azərbaycanın milli maraqlarını təhdid edən bir sıra addımların və bəyanatların yenidən şahidi oluruq. Bu, xüsusilə Ermənistana hərbi yardımların ayrılması, birgə hərbi təlimlərin təşkili fonunda özünü büruzə verir. Nəticədə ikitərəfli danışıqlar formatında sülh prosesində müşahidə edilən irəliləyiş təhdid altına düşür. Digər tərəfdən, məlum siyasət özünü Fransanın təşkilatçı dövlət olaraq Olimpiadada Bakıya münasibətində də büruzə verir. Bu və digər məqamlarla bağlı suallarımızı politoloq Natiq Miri cavablandırır.***

## Müsahib

***- ABŞ, Fransa, Avropa İttifaqı Cənubi Qafqaz regionu, xüsusilə Azərbaycanla bağlı hansı planlarını həyata keçirməyə çalışır?***

- ABŞ-nin ”ipini çəkdiyi” Qərb dünyası Ukrayna-Rusiya cəbhəsində baş verən hadisələri eyni ilə Cənubi Qafqaza transformasiya edir. Bu təkcə Cənubi Qafqazla məhdudlaşacaq məsələ deyil. Bunun Rusiyanın geosiyasi maraqlarının olduğu Mərkəzi Asiyaya da sirayət edəcəyi artıq müşahidə olunmaqdadır. Əlbəttə ki, birinci növbədə Rusiyanı sıxışdırıb Cənubi Qafqazdan çıxarmaq və bölgəni Qərbin təsir dairəsinə salmaq istəyi var. Burada yeganə əngəl ölkə Azərbaycandır. Gürcüstan tam olaraq Qərb dünyasının istədiklərini yerinə yetirmir və bu baxımdan Gürcüstanda parlament seçkilərinin ”isti” keçəcəyi gözlənilir. Digər bir ölkə isə Cənubi Qafqazın ən həlledici ölkəsi olan Azərbaycandır. Qərb tərəfindən ram edilə bilinmədiyi üçün onun təzyiqləri, aqressiyası ilə üzləşirik. Yəni, region üzərində mübarizə təkcə Azərbaycan-Qərb arasında deyil, eyni zamanda Qərb-Rusiya, Türkiyə, region dövlətləri, İran, eyni zamanda Gücüstanda da gedir.

***- Ermənilərin Qərbdəki havadarları Azərbaycanda həbsdə olan separatçıların azadlığa buraxılmasını, ermənilərin Qarabağa qaytarılmasını tələb edir və COP29 konfransı ərəfəsində dünyanın diqqətini bu məsələyə çəkmək istəyirlər. Bu manevrlərin təsirləri nə ola bilər və beynəlxalq hüquqla bu nə dərəcədə doğrudur?***

- COP29 konfransından istifadə edərək Azərbaycanın üzərinə gəlirlər. Avropada Azərbaycana qarşı böyük bir proses başladılıb. Bu prosesə keçmiş Cinayət Məhkəməsinin prokuroru Okampo başçılıq edir. Təbii ki, Okampo nə erməniləri, nə Azərbaycan dövlətini, nə də Qarabağın tarixini araşdırıb bir cümlə belə öyrənməyib. Ortada qlobal kriminal erməni lobbisinin maliyyəsi var. Bu kontekstdə üzdəniraq hüquqşünasdan Azərbaycan əleyhinə bir alət olaraq istifadə edilir. Məlumdur ki, Okamponun ilkin təklif etdiyi məsələ COP29 konfransı ərəfəsində beynəlxalq hümanitar hüquq kontekstində guya Azərbaycanda olan erməni əsirlərin azadlığa buraxılması məsələsi ilə bağlıdır. Fikir verirsinizsə, paralel olaraq ABŞ-də fəaliyyət göstərən bir çox QHT-lər, Qarabağda separatçıların mövcud olduğu illərdə oradakı erməni QHT-ləri, eyni zamanda ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi “Freedom House” və onun ətrafındakı QHT şəbəkəsi bu işə girişiblər. Burada Qarabağdan guya zorla köçürülmüş ermənilərin dönüşü məsələsi qaldırılır ki, bunu təmin etmək mümkün olsun. Eyni zamanda, paralel olaraq Azərbaycan-Ermənistan sərhədində son günlər hərbi təxribatların artmasını da görürük. Yəni bütün bunlar bir-birini şərtləndirən, tamamlayan bütöv bir prosesin tərkib hissələridir. Bu təxribatlar ona görə törədilir ki, Azərbaycan səbirsizlik edərək buna adekvat cavab versin və COP29 ərəfəsində konfransa dəvət olunan bütün beynəlxalq güclərin, dövlətlərinin diqqətini Azərbaycanın Ermənistana qarşı guya aqressiya törətməsinə yönəltsinlər. Bütün bunlar COP29 ərəfəsində Azərbaycan əleyhinə başladımış böyük bir prosesin tərkib hissəsidir. Təbii ki, Azərbaycan da boş durmalı deyil. Qərbi Azərbaycan icması 1988-ci ildən bu günə qədər Qərbi Azərbaycanda yaşamış 300 minə yaxın azərbaycanlının başına açılan soyqırım, bütün faciələrin fotolentlərini, videomaterialları beynəlxalq təşkilatlara və Azərbaycanda mətbuat konfransı keçirməklə bütün səfirliklərə nümayiş etidrməlidir. Bu məlumatlar mütəmadi olaraq dünyanın diqqətinə çatırılmalı, bizə qarşı başladılan prosesi ifşa etməliyik. Eyni zamanda Qarabağda 1988-ci ildən bu yana 30 il müddətində 1 milyona yaxın insanın hansı soyqırıma məruz qaldığı, hansı zülmə məruz qoyulduğu, yurd-yuvalarından qovulduğu, insanların kütləvi olaraq qətlə yetirildiyi faktlar bütün dünyaya təqdim olunmalı, Ermənistanın, qlobal güclərin Azərbaycan əleyhinə başlatdığı proses ifşa olunmalıdır.

Qarabağ ermənilərinin qayıdışı məsələsi qaldırılırsa, paralel olaraq Qərbi Azərbaycandan qovulmuş 300 min insanın geri qayıdışı məsələsi qoyulmalıdır. Əgər beynəlxalq humanitar hüquqdan söhbət gedirsə, Qərbi azərbaycanlıların da qayıdışı humanitar hüquqla ölçülüməli və davamlı olaraq işlənməlidir.



**Natiq Miri,**
politoloq

***- Paris Olimpiya Oyunlarında Azərbaycana qarşı həddini aşdı. Olimpiadada qalib olan Azərbaycan idmançısının əlindən bayrağın alınması epizodu, idmançının qalibiyyətinin bayraqla nümayiş olunmasına icazə verilməməsi bu ölkənin hansı simasını göstərir?***

- Fransa Azərbaycana qarşı qərəz və nifrətini gizlədə bilmir. Azərbaycan tərəfindən verilən cavab təkcə Fransaya deyil. Məlumdur ki, Azərbaycan dövləti Ermənistanı COP29 konfransına dəvət etdi. Bu xüsusi yanaşması idi. Hansı ki, dünya praktikasında belə olmur. Çünki dünyada bütün dövlətləri adətən yaxşılar, pislər, dostlara, düşmənlərə ayırırlar. Azərbaycan yaxşı və pis ayırımı etmədən Ermənistana bu cür dəvət göndərdi. Bu təkçə siyasi deyil, mənəvi, psixoloji, insani yanaşmadır. Burada düşündürücü amillər çoxdur və Fransa da bu yöndə Azərbaycandan bir insanlıq dərsi almış olsaydı, Azərbaycan idmançısına qarşı bu cür həqarət dolu addım atmazdı. Bu, Fransanın cılızlığını bilavasitə ortaya qoyur.

> *“Azərbaycan ABŞ-nin Çinə qarşı olan siyasətinin içərisində yoxdur*
>
> *Ermənistanın, qlobal güclərin Azərbaycan əleyhinə başlatdığı qərəzli proses dünyada ifşa olunmalıdır*
>
> *ATƏT-in Minsk Qrupunun ləğvi məsələsi daha tez həll olunacaq*

***- İranın ali rəhbəri ayətullah Seyid Əli Xamnei yeni prezidentin andiçmə mərasimində Tehrana gələn Nikol Paşinyanla görüşüb və Ermənistanın ərazi bütövlüyünün qorunmasının vacibliyini vurğulayıb. İran nədən narahatdır? Xamnei “İran İslam Respublikası Zəngəzur dəhlizini Ermənistanın zərərinə görür və bu münasibətdə qətiyyətlidir” deyib...***

- İranın dini liderinin bu fikri yeni deyil. Sadəcə indiyə qədər səsləndirdiyi fikirlərin yenidən təkrarıdır. Bu, Paşinyana bir xatırlatmadır. Çünki narahatdırlar və düşünürlər ki, Nikol Paşinyan öz havadarlarının istəyi ilə Zəngəzur dəhlizini aça bilər. Yoxsa Əli Xamnei Ermənistanı İrandan çox istəmir ki... Digər tərəfdən, əgər bu, Ermənistanın məsələsidirsə, İran niyə narahatdır və niyə bunun Ermənistan üçün zərərli olduğunu iddia edir. Burada Ermənistana zərərli olan məqamın harda olduğunu niyə demirlər. Onlar bunu ərazi bütövlüyü ilə əsaslandırırlar. Birincisi, nəqliyyat kommunikasiya sisteminin Ermənistan ərazisindən keçməsi onun qlobal maraqlar kontekstində əhəmiyyətini artırır. İkincisi, bu, Ermənistan üçün yeni maliyyə qazancı, yeni maliyyə bazarlarına çıxışı təmin etmək deməkdir. Burada Ermənistanın əleyhinə olan hansı məqam var? Sadəcə, “ərazi bütövlüyü” məsələsini üzlərinə pərdə edərək, bu məsələni zaman-zaman dilə gətirirlər. Ermənistana xatırladılır ki, Zəngəzur məsələsi İranın maraqları kontekstində deyil, açmayın. Sabah Ermənistanın havadar dövlətləri əmr versələr ki, “dəhliz açılmaldır”, dəhliz açılacaq və İran da burda heç nə edə bilməyəcək. Bu, Ermənistanın müstəqil verə biləcəyi qərardır. Əgər Ermənistan öz ərazisində hər hansı nəqliyyat, logistika, kommunikasiya sistemini açırsa, İranın bu məsələyə nə aidiyyatı var?

***- İrəvan və Ankara arasında münasibətlərin normallaşması prosesi üzrə xüsusi nümayəndələr 5-ci dəfə görüşdülər və bir sıra razılıqlar əldə olundu. Ümumilikdə bu gün Türkiyə ilə Ermənistan arasında sərhəd qapısının açılması nə dərəcədə gözlənilləndir?***

- Türkiyə və Ermənistan rəsmilərinin 5-ci raund olaraq növbəti sərhəd görüşü əhəmiyyətlidir. Ona görə ki, bu məsələ Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə sıx bağlıdır. Bu görüşdə Türkiyə dövləti Ermənistanın diqqətinə çatdırıb ki, əgər həqiqətən də dünyaya çıxmaq, Türkiyə ilə münasibətləri tənzimləmək istəyirsə, buyurub Azərbaycanla münasibətləri tənzimləsin, sülh müqaviləsini imzalasın. Görüşdə o da deyilib ki, Zəngəzür dəhlizinin Azərbaycan və Türkiyənin maraqları kontekstində açılması arzuolunandır. Bu, Türkiyənin vaz keçmək istəmədiyi məsələlərdən biridir. Hər iki tərəf bəyan edib ki, bu görüş yaxşı və konstruktiv məcrada davam edib. Deməli, perspektivdə müəyyən anlaşmalar ola bilər. Sadəcə, Türkiyə-Ermənistan sərhədinin açılması deyil, həm də Azərbaycanla Ermənistan münasibətləri kontekstində irəliləyişlər ola bilər. Məsələn, Azərbaycanın konkret şərtləri var ki, ərazi iddiası Ermənistan konstitusiyasından çıxarılmalıdır, paralel Azərbaycan ATƏT-in Minsk Qrupunun ləğvi ilə bağlı Ermənistanla birgə ATƏT-ə müaciət etməyi şərt kimi irəli sürüb. Düşünürəm ki, ATƏT-in Minsk Qrupunun ləğvi məsələsi daha tez həll olunacaq. Ermənistan da bu məsələyə pozitiv baxır. Bu, ABŞ-nin Qafqaz üzrə nümayəndəsinin bir neçə gün öncə Ermənistana səfəri zamanı kiçik nüansla özünü göstərdi. Belə ki, təqdimat Ermənistanın rəsmi dövlət saytında əvvəlki kimi deyildi. Lui Bono əvvəl ABŞ-ın ATƏT-in Minsk Qrupunun həmsədri kimi təqdim olunsa da, artıq sadəcə Qafqaz üzrə xüsusi nümayəndə statusunda təqdim olunub. Deməli, bu məsələ bir problem olaraq ortadan qaldırılmaqdadır. Ona görə də düşünürəm ki, Türkiyə-Ermənistan 5-ci raund görüşü hələ Ermənistan-Türkiyə sərhəd qapısının açılacağı demək deyil. Çünki sərhəd qapılarının açılması Azərbaycan-Ermənistan münasibətlərinə bağlı məsələdir. Ermənistana dəfələrlə bildirilib ki, prosesin gələcək inkişafı və perspektivi Ermənistan rəhbərliyinin davranışından asılı olacaq.

***- Bir yandan da Çin qlobal təhlükəsizliyi, sabitliyi və inkişafı təmin etmək üçün “Bir kəmər, bir yol” təşəbbüsünü inkişaf etdirməyi təklif edir. Bu təşəbbüs kimləri narazı salır və regionda Azərbaycana qarşı olan hücumları nə dərəcədə aktivləşdirəcək?***

- ABŞ maraqlıdır ki, yeni nəqliyyat kommunikasiya xətləri Rusiya və Çindən yan keçərək Mərkəzi Asiya ölkələrini əhatə edib, Azərbaycan və Ermənistan vasitəsilə Türkiyəyə, oradan Qara Dənizi, Aralıq dənizini keçərək Avropaya çıxsın. İndiki halda Mərkəzi Asiya ölkələrinin yükdaşıma ticarəti əsasən Rusiya Çin üzərindən həyata keçirilir. ABŞ burada Rusiya və Çini oyundankənar vəziyyətdə saxlamaq istəyir. Azərbaycan Gürcüstan və Zəngəzur üzərindən Türkiyəyə və dünyaya çıxış etməkdə maraqlıdır. Azərbaycan eyni zamanda Çindən gələn yükləri də böyük məmnuniyyətlə qəbul edəcək. Azərbaycan ABŞ-ın Çinə qarşı olan siyasətinin içərisində yoxdur. Bu yeni nəqliyyat kommunikasiya sistemləri işlədiyi təqdirdə ən böyük yüklər Çindən gələcək. Ona görə Azərbaycan maraqlıdır ki, “bir kəmər bir yol layihəsi” içərisində Çin də yer alsın. Çindən gələn yüklər Qazaxıstana, oradan Xəzər dənizi vasitəsi ilə Gürcüstana, Türkiyəyə çıxışı təmin etsin. Azərbaycan bu məsələni öz maraqları kontekstində həll edəcək, ABŞ-ın istəyi ilə deyil. Əgər ABŞ istəyirsə ki, Mərkəzi Asiyanın çıxışı Rusiya, Çinlə deyil, ancaq Azərbaycan, Ermənistan vasitəsi ilə dünya bazarlarına olsun, buyurub Ermənistanı razı salsın.

***- Qərbin, Avropanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesində özünü “baş məsləhətçi” kimi aparması, üstəlik Ermənistanın silahlandırılması, hərbi təlimlər, iki ölkə arasında sülh müqaviləsinin reallaşmasına nə dərəcədə maneə yaradır? Sülh müqaviləsi bu gedişlə noyabra qədər bağlana biləcək?***

- Qərb dünyası - ABŞ, Avropa İttifaqı sülh müqaviləsinin imzalanmasını istəyir. Çünki dəyişən geosiyasi vəziyyət kontekstində gələcəkdə böyük əngəllərlə qarşılaşa biləcəklərini düşünürlər. Belə ki, artıq Ukrayna-Rusiya cəbhəsində böyük qeyri-müəyyənlik var və sülh danışıqlarının getməsi ilə bağlı məlumatlar dolaşır. Atəşkəs və danışıqların başlayacağı bir vaxtda Rusiyanın başı açılacaq və özünün geosiyasi maraqları olan regionlara daha çox diqqət ayıracaq. Bu xüsusda Ermənistana təzyiqlər fonunda onu Rusiyanın orbitindən çıxarmaq mümkün olmayacaq. Qərb daha çox bundan narahatdır. Qərbin Cənubi Qafqaz siyasəti Ermənistan üzərindən qurulub. Əgər Ermənistanı Rusiyanın orbitindən çıxarıb Qərbə inteqrasiyasını təmin edərlərsə, bu, Qərbin Cənubi Qafqaz siyasətində ciddi irəliləyiş olar. Əslində Azərbaycan və Gürcüstana olan təzyiqlərin əsas məqsədləri bununla bağlıdır. O ki qaldı Ermənistanın silahlandırılmasına, əlbəttə ki, bu, bir tərəfdən Ermənistanın ayaqda duruşunu, dayanıqlı bir ölkə olmasının təmin edilməsi, bir tərəfdən də Azərbaycana yönəlik hərbi balansı təmin etməklə bağlıdır. Bu təminat sülh masası arxasında Ermənistanın rahat danışa bilməsi üçündür. Qərbin, Avropanın bu yanaşması regionda sülhə töhfə vermir, yeni eskalasiyaya, hərbi təxribatlara yol açıb. Ermənistan Azərbaycanın torpaqlarını işğal edib. İşğalçı dövlətin sülh müqaviləsi imzalamadan silahlandırılması doğru davranış deyil, beynəlxalq qaydalara ziddir.

***- Cənubi Qafqaz regionunun ikinci Ukraynaya çevrilməsi nə dərəcədə real ola bilər?***

- Regionu Ukraynaya çevrimək mümkün olmayacaq. Burada Azərbaycan və Gürcüstan kimi müstəqil dövlətlər və bizi dəstəkləyən Türkiyə var. Düzdür, Cənubi Qafqazda yeni müharibə ocağı yaratmaq istəyənlər var, amma bu onların qursaqlarında qalacaq. Digər tərəfdən, əgər müharibə ehtimalı varsa, bundan daha çox Ermənistan narahat olmalıdır. Yeni müharibə Ermənistanın varlığını şübhə altında qoyacaq. Ermənistan bu təhlükəni bilməmiş deyil. Ona görə də regionun ikinci Ukraynaya çevrilməsini görmürəm.

***✍ Tahirə Qafarlı***



# Separatçılara “azadlıq” tələbi

◂ əvvəli 1-ci səhifədə

Onlar təhlükəli cinayətkarlardır, heç bir halda onları hərbi əsir və yaxud başqa formada adlandırmaq olmaz. Bu istiqamətdə Azərbaycana heç kim heç bir formada təsir göstərə bilməz”.

■ **Hərbi ekspert Ədalət Verdiyev bildirir ki, Azərbaycanda həbsdə saxlanılan erməni separatçılarının rəhbərləri kifayət qədər çox sayda və ağır müharibə cinayətlərində ittiham olunurlar. O, qeyd edib ki, erməni əsirlərin azadlığa buraxılmaları üçün Bakıya qarşı təzyiq cəhdləri əvvəllər də olub, indi də var, gələcəkdə də olacaq.**

“Bu cəhdlər heç bir nəticə verməyəcək. Həmin şəxslər Azərbaycana qarşı törətdikləri soyqırım cinayətlərini, etnik təmizləməni və digər müharibə cinayətlərini öz dilləri ilə etiraf ediblər. Onların məhkəməyə çıxarılması və uzun müddətə azadlıqdan məhrum edilməsi də zaman məsələsidir.

İndiyə qədər Azərbaycana qarşı təzyiq cəhdləri heç bir nəticə verməyib, bundan sonra da heç bir nəticə verməyəcək. Əksinə, həmin təzyiq dili ilə danışanların başında gələn məhz Fransa prezidenti Makron idi. Hazırda Azərbaycan Fransanın müstəmləkəçilik siyasətinə görə demək olar ki, Makronun komandasının fəaliyyətini darmadağın edib. Hazırda Fransa Azərbaycana qarşı çıxış etdiyinə görə dərin peşimançılıq hissi keçirir. Bu da bir fayda vermir. Ona görə də Azərbaycana qarşı təzyiq cəhdləri göstərmək istəyənlərin aqibəti Makronun aqibətindən çox da fərqlənməyəcək”.

Ekspert bildirir ki, Ermənistan vaxtilə Azərbaycanla təhdid, təzyiq dili ilə danışmağa cəhd edirdi. Azərbaycan Prezidenti İlham Əliyevin və qəhrəman ordumuzun sayəsində Ermənistan döyülmüş fərarilər ölkəsinə çevrilib. Odur ki, Azərbaycanla əməkdaşlıq etmək, tərəfdaşlıq, dostluq, qonşuluq etmək olar, amma təzyiq dili ilə danışmaq olmaz. Bunun əkstəsirləri çox ağır olur.

■ **Siyasi şərhçi Məhəmməd Əsədullazadə bildirir ki, Azərbaycanda saxlanılan Qarabağ separatçılarının azadlıq tələb edilməsi ilk növbədə erməni lobbisinin, Ruben Vardanyanın maliyyə hesabına həyata keçirilir.** Onun fikrincə, Vardanyan ailəsi konkret olaraq erməni lobbisinə işləyir, şirkətləri var, pul müqabilində prosesi aparır və Fransadan da qaynaqlanır. M.Əsədullazadə eyni zamanda hesab edir ki, Azərbaycana təzyiqlər əlbətdə ki, boşunadır, heç bir nəticəsi olmayacaq.

“Avropa İttifaqı separatçılara qarşı sərt addımlar atır. Biz bunun İspaniyada və digər ölkələrdə də şahidi oluruq. Separatçılar konkret olaraq cinayət əməli daşıyırlar. Azərbaycana qarşı hərbi cinayətlər, zorakılıq, konkret cinayət faktları var. Müharibə zamanı Gəncənin, Bərdənin bombalanmasını, terrorizmin dəstəklənməsini dünya da bilir, Avropa da. Sadəcə olaraq məsələyə ikili standartlardan yanaşırlar.

Pul müqabilində Ruben Vardanyanın ailəsi bu istiqamətdə 100 minlərlə dollar xərcləyir. Amma bunlar boşunadır. Belə tədbirlər Azərbaycanın daha da sərt qərarlar qəbul etməsinə gətirib çıxaracaq. Azərbaycan heç vaxt Qərbin bu kimi təzyiqləri qarşısında geri addım atmayıb, bundan sonra da belə olacaq”. M.Əsədullazadə hesab edir ki, bu məsələ danışıq predmeti də olmamalıdır. Erməni separatçıları öz cəzalarını Azərbaycan Konstitusiyası çərçivəsində çəkəcək.

***✍ Tahirə Qafarlı***

# İtkin düşən hərbçilərə görə iki nəfər həbs edilib

***Laçında itkin düşən hərbçilərə görə iki nəfər həbs edilib. Bu barədə hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev məlumat verib.***



O bildirib ki, Azərbaycan Ordusunun hərbi qulluqçuları, əsgərlər Məmmədov Fərid Əjdər oğlu və Abdullayev Firdovsi Mais oğlunun 3 mart 2022-ci il tarixdə Laçın rayonu ərazisində itkin düşmələri ilə əlaqədar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun İstintaq İdarəsində istintaqı aparılmış cinayət işi üzrə Babayev Təbriz Rasim oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 329.2.1-ci, 329.2.2-ci, 329.2.6-cı və 341.3-cü maddələri ilə, Həməşəyev Taleh Möhübbət oğluna isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 341.3-cü maddəsi ilə ittiham elan edilmiş və iş baxılması üçün Füzuli hərbi məhkəməsinə göndərilib:

”Füzuli hərbi məhkəməsinin 22.09.2023-cü il tarixli hökmü ilə Babayev Təbriz Rasim oğlu və Həməşəyev Taleh Möhübbət oğlu onlara elan olunmuş yuxarıda qeyd edilən maddələrdə nəzərdə tutulmuş cinayət əməllərini törətməkdə təqsirli bilinərək müxtəlif müddətlərdə azadlıqdan məhrumetmə cəzasına məhkum ediiblər”, - deyə məlumatda qeyd edilib.

# Dünyada daha çox sel müşahidə edilən ölkələrdənik

## Layiha

**_Son illər Azərbaycanda daşqın və sel hadisələrinin sayı artıb. Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudovun sözlərinə görə, təkcə bu ilin iyul ayında ümumi olaraq ölkə üzrə 43 sel hadisəsi qeydə alınıb. Bu da 2023-cü ilin analoji ayı ilə müqayisədə 2,7 dəfə çox olmaqla, son 50 il ərzində ən çox sel hadisəsi olan iyul ayı kimi qeydə alınıb: "Bu il iyul ayında yağan intensiv leysan xarakterli yağışlar nəticəsində Böyük və Kiçik Qafqaz, Lənkəran-Astara bölgəsinin ərazisindən axan bəzi çaylardan qısamüddətli daşqın və sel keçib. İyul ayı ərzində ölkənin yerli çaylarında, xüsusilə Böyük və Kiçik Qafqazın, Lənkəran-Astara bölgəsi ərazilərindən axan əksər çaylarda sululuq normadan yüksək, bəzi çaylarda isə normadan aşağı olub"._**



Məlumat üçün bildirək ki, ümumilikdə Azərbaycan ərazisi dünyada daha çox sel müşahidə edilən zonalar sırasına daxil edilir. Respublika ərazisinin təxminən yarısını əhatə edən Böyük və Kiçik Qafqaz dağ sistemlərində sel hadisələrinin formalaşması daha intensiv baş verir. Ən çox sel hadisələri Şəki-Zaqatala və Naxçıvanın yüksək dağlıq ərazilərində baş verir. Sellər çay suları olan

*Azərbaycanda iqlim şəraitinin dəyişməsinin əsas səbəbi bura daxil olan müxtəlif tip hava kütlələridir*

və olmayan dərələrdə qəflətən yağan şiddətli yağışlar və ya temperaturun artması ilə qısa müddətdə əriyən qar suları hesabına yaranır. Ölkəmizdə yaranan sellərin isə 85-87 faizi yağış suları hesabına formalaşır. Sellər turbulentli və strukturlu olmaqla iki yerə ayrılır. Turbulentli sellərdə gətirmə materialları daha az olur və sel axımının dağıdıcı təsirinə görə strukturlu sellər nisbətən zəif olur. Strukturlu sellər daşlı-palçıqlı və ya sulu palçıqlı olmaqla onların gətirmə materialları daha çox üstünlük təşkil edir. Strukturlu sellər gətirmə materiallarını çay ətrafı ərazilərdə və çay konusunda çökdürməklə daha çox dağıdıcı təsirə malik olur. Azərbaycan ərazisində hər iki növ sellər müşahidə olunur. Sellərin yaranmasında təbii amillərdən başqa antropogen təsirlər də rol oynayır. Son dövrlərdə antropogen təsirlər sel hadisələrinin baş verməsinə, onların dinamikasının artmasına öz mənfi təsirini göstərməkdədir. Burada ilk öncə çay hövzəsində xüsusən sel təhlükəli ərazilərdə meşə örtüyünün kortəbii məhvini, otlaq və suvarma əkinçiliyinin genişlənməsini, çay məcralarına intensiv müdaxiləni, o cümlədən, bu məcralardan tikinti-çınqıl materiallarının daşınmasını, istifadəsini və s. qeyd etmək olar.

Ekspertlər bildirirlər ki, bunun üçün ilk növbədə çay yataqlarına antropogen müdaxiləni dayandırmaq lazımdır. Yəni, insanlar çay yatağındakı daş və qumdan istifadə edərkən suyun axın istiqamətinin dəyişməsinə şərait yaratmamalıdırlar. Məsələn, yataqdakı daş daşınarkən suyun axını sahillərdən birinə tərəf meyllləndirilib ki, bu da sel vaxtı həmin istiqamətdə sahilin yuyulmaması, torpaq sürüşməsi və suyun ətraf əraziləri basması ilə nəticələnib. Başqa bir antropogen amil insanların nə vaxtsa sel olacağını nəzərə almadan, çayların subasarında tikinti aparması, mal-qara saxlayıb, əkin-biçinlə məşğul olmasıdır. Bundan başqa, yaşayış evlərinin çayın tam sahilində və ya mümkün sel suyunun basa biləcəyi çökək ərazilərdə tikilməsi də əsas problemlərdən sayılır. Mütəxəssislər vurğulayırlar ki, bəzən binalar çayın lap sahilində tikilir, hətta bəzilərinin bünövrəsi birbaşa çayın yatağında qazılır. Məlum sel dalğası gələrkən ilk olaraq məhz həmin binaların uçma ehtimalı çox yüksək olur. Ona görə də bütün dünya alimləri bu faktı nəzərə alaraq, insanları çayların tarixən yaratdığı dərələri zəbt etməməyə çağırır və bildirirlər ki, əgər su nə vaxtsa bu dərəni yaradıbsa, mütləq oradan təkrar axa bilər.

**■ Mövzu ilə bağlı coğrafiya elmləri doktoru Səid Səfərov bildirib ki, dolu düşməsi, sel gəlməsi, digər neqativ hadisələrin baş verməsi 10-15 ildən güclənə bilir: "Məsələn, 1983-cü ildə, 1985-ci ildə, 2010-cu ildə demək olar ki, buna oxşar hadisələr baş verib.**

Bunun səbəbi nədir? Azərbaycanda iqlim şəraitinin dəyişməsinin əsas səbəbi bura daxil olan müxtəlif tip hava kütlələridir. Tutaq ki, ölkə ərazisinə soyuq hava kütlələri daxil olur, bu halda isti hava yüngül olduğundan yuxarı qalxır. Şimaldan soyuq hava kütlələri, Qərbdən Atlantik okeanı və Aralıq dənizindən daxil olan rütubətli hava kütlələrinin Azərbaycan ərazisində görüşməsi halları nə qədər tez-tez təkrarlanarsa, təhlükəli atmosfer proseslərinin və onlarla əlaqədar olan intensiv leysan, dolu, ildırım, şiddətli qasırğa küləkləri, həmçinin daşqın və sellərin ehtimalı da bir o qədər çox olur. Qeyd olunan hava kütlələrinin daxil olması özünü soyuq hava cəbhələri və cənub siklonlarının əraziyə yaxınlaşması ilə büruzə verir. Soyuq hava cəbhələrində isti və nisbətən soyuq hava kütlələri sərhəddində temperatur kontrastı nə qədər kəskin olarsa, baş verən təhlükəli atmosfer prosesləri daha şiddətli olur". Ekspert vurğulayıb ki, iqlim dəyişmələri atmosferdə karbon qazının konsentrasiyasının artması ilə əlaqədardır: "Bu gün iqlim dəyişmələri ilə əlaqədar Yer kürəsinin orta illik qlobal temperaturu artıb. Azərbaycan ərazisində də qlobal istiləşmə öz təzahürlərini göstərməkdədir. İqlim norması 1961-1990-cı illərlə müqayisədə 1991-2020-ci illərdə havanın orta illik temperaturu orta hesabla 0,80 - 1,2 dərəcə artıb. Ən böyük artım isə avqust ayında müşahidə edilir ki, bu da bir çox hallarda davamlı və intensiv "isti hava dalğaları", həmçinin ekstremal hava temperaturları ilə müşayiət olunur. Bununla yanaşı, qlobal temperaturun dəyişməsinə dünya okeanında baş verən irimiqyaslı proseslər də nəzərəçarpacaq təsir göstərir. Bunlardan biri Sakit okeanın ekvatorial ərazilərində vaxtaşırı müşahidə olunan "La Nino" və onun əksi olan "El Nino" hadisələridir. "La Nino" baş verdiyi zaman Sakit okeanın tropik və xüsusilə də ekvatorial hissəsində nisbətən isti səth axınları şərqdən qərbə doğru hərəkət edərək, Cənubi Amerikanın qərb sahillərində (Peru və Ekvador) "apvelling" hadisəsinə, yəni nisbətən soyuq dərinlik sularının səthə qalxmasına səbəb olur. Sahil sularının temperaturunun aşağı düşməsi orada yaşayan canlılar, o cümlədən əksər balıq növləri üçün münbit şərait yaratmaqla yanaşı, Peru və Ekvadorda quraqlığa, Avstraliya və İndoneziyanın əksər ərazilərində isə şiddətli yağıntılara və daşqınlara səbəb olur. Bəzən də okeandakı səth axınları istiqamətini kəskin dəyişərək, qərbdən şərqə doğru yönəlir ki, bu da "El-Nino" hadisəsinin baş verməsinə səbəb olur. Bu zaman nisbətən isti səth suları Cənubi Amerika sahillərinə yönəlməklə orada "apvelling" proseslərini xeyli zəiflədir və hətta su səthi temperaturunun nəzərəçarpacaq artımına şərait yaradır. Bu zaman Cənubi Amerikanın qərb sahillərində okeanın səviyyəsi 60 sm-ə qədər qalxa bilir. Suyun temperaturunun kəskin artması buradakı canlılar üçün əlverişsiz şərait yaratmaqla yanaşı, intensiv yağıntılara, qasırğalara və daşqınlara səbəb olur. Həmin dövrdə əks istiqamətdə yerləşən Avstraliya və İndoneziyanın əksər ərazilərində kəskin quraqlıq və meşə yanğınları müşahidə olunur.

*Məskunlaşma zamanı mütləq iqlim şəraiti nəzərə alınmalıdır*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

Qərbdən-Şərqə doğru hərəkət edən isti su kütləsi Sakit okeanın ekvatorial ərazilərində passat küləklərinin zəifləməsinə və beləliklə həmin ərazilərdə yağıntıların azalmasına və quraqlığa səbəb olur. "El Nino" hadisəsi yalnız ekvatorial Sakit okean regionuna deyil, kifayət qədər uzaq məsafələrdə yerləşən ərazilərin də hava və iqlim şəraitinə təsir edir. "El Nino" zamanı okean artıq istilik və rütubətin bir hissəsini atmosferə ötürdüyündən Yer kürəsinin qlobal temperaturu bir qədər arta bilir. Hazırda "La Nino"nun zəifləyərək "El Nino"ya keçməsi Azərbaycan ərazisində intensiv yağıntılar, dolu düşməsi, daşqın və sel hadisələri ilə özünü büruzə verir və qarşıdakı 2-3 il ərzində də bu tendensiyanın davam edəcəyini ehtimal etmək olar".

**■ Mövzu ilə bağlı aqrar elmlər üzrə fəlsəfə doktoru Ənvər Əliyev bildirib ki, məskunlaşma zamanı mütləq iqlim şəraiti nəzərə alınmalıdır. Onun sözlərinə görə, bu məsələdə həmişə ehtiyatlı olmaq lazımdır: "Çay yatağına yaxın, dərə, yamac ərazilərdə məskunlaşma olmamalıdır.**

Bəzən baxırlar hansısa çay quruyub, yataqdan daha çay keçmir, elə zənn edirlər ki, daha oradan çay keçməyəcək, su gəlməyəcək, başlayırlar məskunlaşma aparırlar, tikinti işləri həyata keçirirlər. Bu, qətiyyən düzgün deyil. "Su gələn arxa, bir də gələr" məsələni atalar elə-belə deməyib. Çay yatağından, çay dərəsindən gərək bacardıqca uzaqda, kənarda məskən salınsın. Qurumuş çay yatağına da təkrar çay gələcəyi mümkündür. Dərələrdə, yamaclarda məskunlaşma təhlükəlidir. Təbiətlə oyun oynamaq olmaz. İnsan təbiətin nələr təqdim edəcəyini bilmir. İllərlə susuz qalmış çaylara qəfil sel gəlir, daşqın olur. Ona görə də ehtiyatlı olmaq həmişə lazımdır.

Müasir dövrdə təbiət qarşısında gücsüz qalmaq yalnız plansız tikililər, plansız məskunlaşma, təbiətin məhv edilməsi səbəbindən baş verə bilər. Hazırda iqlim dəyişmələrindən çox danışılır. İqlim dəyişmələri baş verir və bunun birinci səbəbkarı insanlardır. Azərbaycanda may ayının axırı, yay fəslinin əvvəli yağıntılı dövr hesab edilir. Son illərdə təbiətdə dəyişiklik baş verir. Baxırsan ki, quraqlıqla mübarizə dövründə yağıntılar intensivləşdi, hətta bəzi yerlərə qəfil qar, dolu yağır. Bəli, təbiət hadisələri artıb. Təbiət hadisələrində dövrilik prinsipi var. Məsələn, 1924-26-cı illərdə Azərbaycan ərazisinə güclü qar yağıb, leysan yağışlar olub. İndi yenə təkrarlanır. Böyük Qafqazın cənub yamaclarından Balakəndən Şamaxıyadək, o cümlədən cənub rayonlarından da sel, daşqın keçib. İnsanlar bunu bilməli və hazırlıqlı olmalıdırlar. Hazırlıqsız olduqda ciddi fəsadlarla üz-üzə qalırlar".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Amerikalı sahibkar İlon Mask sahibi olduğu "X" sosial şəbəkəsini boykot edən şirkətlərə "müharibə" elan etdiyini söyləyib. Bu barədə İlon Mask "X" sosial şəbəkəsindəki səhifəsində paylaşım edib. "İki ildir sülh içindəyik, indi isə müharibəni sınayaq", - paylaşımda deyilir.

■ Mənim idman tariximi artıq yazılıb, 4 Olimpiya medalı. Bu haqda qadın güləşi üzrə Azərbaycan yığmasının üzvü Mariya Stadnik şəxsi "Instagram" hesabında yazıb. "İnsan planlaşdırır, amma Allah hər zaman bizim üçün ən yaxşısını bilir.

17 il ərzində böyük qürurla Azərbaycanın adını təmsil etdim, bu yolda məni dəstəkləyən və mənimlə olan hər kəsə təşəkkür edirəm. İndi isə başqa bir tarix yazmağın vaxtıdır", - Stadnik əlavə edib.

■ Yaxın vaxtlarda Ermənistan, İran və Hindistanın iştirakı ilə ticarət yolunun işə salınması üçün üçtərəfli görüş baş tutacaq.

Bu barədə "Sputnik Ermənistan" logistika şirkətlərindəki mənbələrinə istinadən məlumat yayıb.



■ Ukrayna ordusu Rusiyanın Rostov vilayətindəki Morozovsk aviabazasına zərbə endirib. Bu barədə Teleqram kanalları məlumat yayıb. Məlumata görə, bazada Su-34 məhv edilib, həmçinin sursat anbarlarının yaxınlığında güclü partlayışlar baş verib.

■ Rusiya və Suriya Türkiyə ilə sərhəddə hərbi baza yaradıb. Bu barədə "Türkiyə" qəzeti məlumat yayıb. Bildirilib ki, hərbi baza PKK terror qruplaşmasının "Kobani" olaraq adlandırdığı Ayn əl-Ərəb bölgəsində yerləşir.

■ Parisdəki Olimpiya Oyunlarında 40-dan çox idmançı COVİD-19-a yoluxub. Bütün dünyada xəstəliyə yoluxanların sayının artması həyəcan doğurur. Bu barədə ÜST-nin nümayəndəsi Mariya Van Kerkhove Cenevrədə keçirilən brifinqdə bildirib.



■ Venesuela Prezidenti Nikolas Maduro ölkənin bəzi bölgələrinin Vatsapda zorakılıq və nifrət yaydığını əsas gətirərək tətbiqi canlı yayımda telefonundan silib.

Paytaxt Karakasda iştirak etdiyi televiziya yayımı zamanı telefonunun ekranını kameralara göstərən Maduro Vatsap tətbiqini silib.

■ Argentinanın keçmiş birinci xanım Fabiola Yanes ölkənin sabiq prezidenti Alberto Fernandesi fiziki və psixoloji zorakılıqda ittiham edib. Bildirilib ki, Fernandesin ölkədən çıxışına qadağa qoyulub. Hakim Fernandesin Yanesə yaxınlaşmasını və onunla hər hansı əlaqə saxlamasını da qadağan edib.

# Olmayan uşağa görə aliment ödənilib

**Astara rayonunun Kakalos Ailə Sağlamlıq Mərkəzi və Lənkəran rayon Mamusta ASM-in vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə daxil olmuş müraciət əsasında rayon prokurorluğunda araşdırma aparılıb. Bu barədə Astara Rayon Prokurorluğunun məlumatında deyilir.**

Bildirilib ki, araşdırma zamanı həmin Mərkəzlərin vəzifəli şəxsləri tərəfindən vətəndaş Könül Ağayevanın guya 2016-cı ildə uşaq dünyaya gətirməsinə dair rəsmi tibbi sənədlərə bilə-bilə yalan məlumatların daxil edilməsi, bunun əsasında sonuncunun mövcud olmayan həmin uşağa dair qanunsuz olaraq şəhadətnamə və şəxsiyyət vəsiqəsi əldə etməsi və qeyd olunan saxta sənədlərdən istifadə etməklə məhkəmə qətnaməsi əsasında xeyrinə aliment tutulmasına nail olmasına əsaslı şübhələr müəyyən edilib.

Fakta görə Astara rayon prokurorluğunda Cinayət Məcəlləsinin 313 (vəzifə saxtakarlığı) və 320.2-ci (rəsmi sənədləri, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama və istifadə etmə) maddələri ilə cinayət işi başlanıb. Hazırda ibtidai istintaq davam etdirilir.

# Bakıda həbs edilən ukraynalı milyonerin istəyi reallaşmayıb



**Bakıda xuliqanlıqda ittiham olunaraq həbs edilən tanınmış ukraynalı milyonçu, kriminal avtoritet Oleq Krapivin (Oleq Bakinski) barəsində seçilmiş həbs qətimkan tədbirindən apellyasiya şikayəti verib. "Report" xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsində onun şikayətinə baxılıb.**

Hakim Həsən Əhmədovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, Oleq Krapivinin şikayəti təmin edilməyib, birinci instansiya məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılıb. Xatırladaq ki, ukraynalı avtoritet Oleq Bakinski Bakıda Rusiya vətəndaşına qarşı xuliqanlıq etməkdə təqsirləndirilir. İstintaq orqanı tərəfindən onun barəsində Cinayət Məcəlləsinin 221.3-cü ( xuliqanlıq, silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə törədilməsi zərər çəkmiş şəxsə zor tətbiq olunması ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət olunduqda) maddəsi ilə ittiham verilib. Məhkəmə onun barəsində 3 ay müddətə həbs qətimkan tədbiri seçilib. Oleq Bakinskinin əməli sübuta yetirilərsə maddənin sanksiyasına görə o, iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.

# Türkiyə İsraili Beynəlxalq Ədalət Məhkəməsinə verib

**Türkiyə İsrail ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinə müaciət edib. Bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan "X" hesabında yazıb. O bildirib ki, ölkəsi Cənubi Afrika Respublikasının İsrailin Yaxın Şərq regionunda soyqırımı törətməsi ilə bağlı iddia ərizəsində tərəf kimi çıxış edəcək:**

"Törətdiyi cinayətlərin cəzasız qalmasından cəsarətlənən İsrail gün keçdikcə daha da çox günahsız fələstinlini qətlə yetirir. Soyqırımımı dayandırmaq üçün beynəlxaql ictimaiyyət öhdəliyini icra etməli, İsrail və onun tərəfdarlarına lazımi səviyyədə təzyiq etməlidir. Türkiyə bu yolda əlindən gələn hər cür addımı atacaq".

# Turan hərbi birliyi yaradılmalıdır



Rauf Məmmədov, politoloq

**_Zəngəzur dəhlizi məsələsi yenidən gündəmdədir. Bu dəfə ABŞ dövlət katibinin köməkçisi Ceyms O`Brayn Zəngəzur dəhlizi ilə bağlı açıqlamasında bildirdi ki, Azərbaycan və Amerika sülh sazişini dəstəkləyir. O, belə hesab edir ki, kommunikasiyalar açılmalıdır. Əsas məqsəd bu xətlərin Mərkəzi Asiya ölkələri, Çin və Rusiyadan yan keçərək bu dəhliz vasitəsilə resurslarının Qərb bazarına çıxarılmasını təmin etməkdir. Görünən odur ki, Vaşinqton bu məsələdə kartlarını artıq açıq oynamaba başlayıb. Vaşinqtonun dəhlizlə bağlı planlarının bölgəmizə nələr vət etdiyi ilə bağlı politoloq Rauf Məmmədovla söhbətləşdik:_**

*"ABŞ-nin hədəfi Rusiyanın tamamilə Cənubi Qafqazdan, Ermənistandan çıxardandan sonra özünün gəlib Xankəndidə oturmasıdır*

## Müsahib

***- Zəngəzur dəhlizi uğrunda mübarizə yeni mərhələyə qədəm qoyur. Kartların açıq oynanıldığı bu mərhələdə Azərbaycanın mövqeyi nədən ibarət olacaq?***

- Azərbaycanın mövqeyini dəyişməsi ehtimalı çox zəifdir. Təbii ki, hər şey ola bilər, amma bu, dünyada vəziyyətin dəyişməsindən asılıdır. Dünyada qlobal güclər arasında gedən bu qarşıdurmada hansı tərəf qalib çıxacaqsa, təbii ki, Azərbaycan da öz mövqeyini ona görə dəyişə bilər. Ancaq faktiki olaraq indiki halda bundan danışmaq tezdir. Azərbaycan strateji olaraq öz mövqeyini seçib. Bu seçim Bakının da, Ankaranın da maraqlarına cavab verir. Azərbaycan, Türkiyə və Pakistan dünyada gedən qlobal qarşıdurmaların kiçik oyunçuları deyillər. Tədricən güc sahibinə çevriliblər. Bu qarşıdurmanın nəticəsində üçüncü güc olaraq Turan Birliyi ortaya çıxıb hərbi blok, siyasi struktur kimi formalaşıb öz sözünü deyə bilərsə, onda Azərbaycanla Türkiyə tərəfi öz layihələrinin üzərində sona qədər dayana bilərlər. Müşahidələr prosesin bu istiqamətdə getdiyini göstərir.

***- ABŞ-nin Zəngəzurla bağlı layihədə irəli sürdüyü təşəbbüslərdə məqsəd nədir və bizim maraqlarımıza nə dərəcədə uyğundur?***

- Bu layihənin Amerika versiyası bizi maraqlandırmır və sərfəli deyil. Birincisi, ABŞ layihəsinə görə Hindistandan gələn Baharat yolu Cənubi Qafqaz, oradan Zəngəzur dəhlizindən keçəcək. ABŞ Zəngəzur dəhlizinə nəzarəti üzərinə götürsə onu Azərbaycana yox, Ermənistana verəcək. Zəngəzur dəhlizinə status verib orada öz qoşunlarını yerləşdirib həmin yola nəzarət edəcək. Məqsəd odur ki, bütün istiqamətlərdə nəzarəti öz üzərinə götürməklə təzyiq vasitəsi kimi Avropanı nəzarətdə saxlasın, həm də Asiya bölgəsində öz mövqeyini gücləndirsin. Bu məsələdə forpost olaraq ermənilər seçilib. ABŞ-nin heç bir zaman bizi gücləndirmək, bizimlə getmək məqsədi ola bilməz. Ona görə ki, Azərbaycanın sosioloji, mədəni kimliyinə, kodlarına baxanda görürük ki, biz Avrasiya məkanında geniş yayılmışıq. Ölkəmiz mədəni və sosial fenomen olaraq özündə həm türk, həm də müsəlman dünyasını birləşdirir. Ermənistan isə elə bir ölkədir ki, özündən başqa heç kimi sevmir və yalnız özünə bağlıdır. Bu ölkəyə bir imkan, güc lazımdır ki, ona xidmət etsin. Ona görə də ABŞ həmin statusu Ermənistana vermək istəyir. Amerikanın maraqları bizim maraqlarla uyğun gəlmir. Bu baxımdan Azərbaycan, təbii ki, öz layihəsində Türkiyə ilə bir yerdə möhkəm dayanıb. Azərbaycanın gücü Türkiyənin güclü olmasında, Türkiyənin də gücü Azərbaycanın güclü olmasındadır. Bunlar bir-birinə dəstəkdilər. Bu baxımdan Azərbaycan ABŞ-ın bu layihəsinə razılıq verməyəcək.



İkincisi, Azərbaycanın Çinlə müqavilələri var, iqtisadi, siyasi əməkdaşlıq, müttəfiqlik haqqında bəzi sənədlər imzalanıb. Çində başa düşülür ki, Orta Asiya, Azərbaycan və Türkiyə ilə birlikdə orta yol layihəsini işlətməsi üçün başqa variant qalmır. Çinin marağı budur ki, bu layihə işləsin. ABŞ bu layihənin Çində işləməsini istəmir. Bax, burada da məsələ qəlizləşir.

***- ABŞ-nin Zəngəzurla bağlı layihəsində yer alan Çinin, Rusiyanın kənarda saxlanması sülhə, regiondakı vəziyyətə nə vəd edir?***

- Çinin, Rusiyanın bu layihədən kənara qoyulması, əlbəttə ki, bölgədə vəziyyəti gərginləşdirəcək. Çin birmənalı şəkildə özünün mövcudluğunu ancaq bu layihədə təmin edir. Aydın məsələdir ki, Çin yumşaq yolla gedir. Təbii ki, bu məsələdə Çin Rusiya ilə, Rusiya da Çinlə yaxınlaşacaq. Yəni bölgədə situasiya gərginləşəcək. Bunun da bizə xeyri yoxdur. Bizə bu layihələrin işləməsi xeyir edir. Həmin layihə ilə gələcək planlarımızı həyata keçirə bilərik. Məsələyə bu baxımdan yanaşanda da Amerikanın sözügedən planının reallaşması həqiqi görünmür. Amerika bu planı reallaşdırmaq üçün bölgədə güc sahibi olmalıdır. Cənubi Qafqazın güc sahibi isə Azərbaycandır. Azərbaycan ABŞ ilə bir çox məsələlərdə razılaşmır, maraqları üst-üstə düşmür. Gürcüstan, aydın məsələdir ki, Avropa birliyi Amerika ilə yaxın əlaqələrdə idi, ancaq son dövrdə gördük ki, artıq orada liberallar arxa plana keçir və hakimiyyət daha çox bölgə siyasətinə meyl göstərir. Bu onu göstərir ki, Amerika Gürcüstanda öz mövqeyini itirir və öz mövqeyini bərpa eləmək üçün hakimiyyət dəyişikliyi etməyə səy göstərir.

Fakt budur ki, bölgə ölkələri ümumi bir maraq çərçivəsində bir araya gəlməyə çalışırlar. Yəni "3+3" formatı məsələsi gündəmdədir. Bu istiqamətdə maneələr, təbii ki, var və olacaqdır. Bölgə ölkələrinin məqsədi ortaq iqtisadi məkan qurmaq və orda inkişaf etməkdir. Bu məsələdə Çin, hansısa məqamda Rusiya da maraqlıdır. Düzdür, Rusiya bölgədə Zəngəzur dəhlizinə özü nəzarət etmək istəyir. Yəni dəhliz "dünyanın damarıdır", kim onun üzərində nəzarəti götürsə, dünyaya hökmranlıq edəcək.

***- Rusiya Cənubi Qafqazdan nə dərəcədə uzaqlaşıb və ABŞ boşalan yerlərdə necə bərkiməyi düşünür?***

- ABŞ-nin hədəfi Rusiyanın tamamilə Cənubi Qafqazdan, Ermənistandan çıxardandan sonra özünün gəlib Xankəndidə oturmasıdır. Biz bunu bilirik və Amerika ilə razılaşmırıq.

Azərbaycanın maraqları bölgə xalqları, xüsusilə türk xalqları ilə bir araya gəlməkdir. Biz bu istiqamətdə dünyada böyük bir güc mərkəzi kimi formalaşmalı və inkişaf etməliyik ki, yeni dünya düzəninin formalaşmasında əsas aparıcı rollardan biri üzərimizə düşsün. Təbii ki, o gücün formalaşması istiqamətində çox sürətli işlər getməlidir. Birinci növbədə Turan hərbi birliyi yaradılmalıdır. Pakistan kimi bir çox ölkələr də burada təmsil olunmalıdır. Bu istəyimizə çatdıqdan sonra bölgədə sülh yaranacaq, ermənilər də məcbur olub şərtlərimizi qəbul edəcəklər. Ermənilər mövcud durumla barışa bilmirlər. Onlar həmişə alət olublar, alət olmaqda da davam edirlər. Ona görə də hər cür təxribata, xəyanətə əl atacaqlar.

✍ *Tahirə Qafarlı*



# Pomidor niyə ucuzlaşmır?!

**_Aqrar məhsulların mövsümü olmasına baxmayaraq, paytaxt bazarlarında xüsusilə pomidor və xiyarın qiyməti əl yandırır. Hər ilin avqustunda kiloqramı 50-60 qəpiyə satılan xiyar və pomidorun qiyməti hazırda 2 manat 80 və 3 manat 70 qəpik arasında dəyişir. Vətəndaşlar mövcud vəziyyətdən narazıdır və qiymətlərin bu qədər yüksək olmasını başadüşülən hesab etmirlər. Bəs, görəsən, sözügedən məhsulların mövsümdə baha qiymətə satılmasına səbəb nədir? Bunun ixracla əlaqəsi varmı?_**

## Bazar

**■ Məsələ ilə bağlı Liberal İqtisadçılar Mərkəzinin rəhbəri Akif Nəsirli meyvə-tərəvəz qiymətlərindəki bahalığın səbəbini inhisarçılıqla əlaqələndirib. Onun sözlərinə görə, rayonlarda həmin məhsulları yetişdirən fermerlərin bazarlara birbaşa çıxışı yoxdur:** "Böyük şəhərlərin bazarları da inhisarçıların ixtiyarındadır. Məsələn, rayondan bir maşın meyvə gətirən fermer Bakıdakı bazarların birində avtomobilini saxlayıb rahatlıqla məhsul sata bilməz. Bunun üçün müəyyən prosedurlardan keçmək lazımdır. Kifayət qədər yüksək məbləğdə ödəniş olunmalıdır. Həmçinin, yad satıcı burada ayrı-seçkiliyə məruz qalır. Bütün bunlar fermerin bazara girişini məhdudlaşdırır. Əslində, necə olmalıdır? Elə şərait yaradılmalıdır ki, Bakı şəhərinin ətrafında bir neçə topdan satış meyvə bazarı olsun. Həmin digər bazarlar da özünə müştəri cəlb etməlidir. Fermer bazara çatdığı dəqiqədə məhsulunu yerləşdirib satışa başlamalıdır. Belə olsa, qiymət fərqi təkcə yol xərci olar. Bu isə həm fermerə, həm də alıcılara sərfəli olar. Amma, çox təəssüf ki, Azərbaycanda bu imkanlar yoxdur". Ekspert bildirir ki, yay fəsli olmasına baxmayaraq, əlverişsiz hava şəraiti kənd təsərrüfatı sahəsində qıtlığa səbəb olub: "Digər məsələ isə bundan ibarətdir ki, əlverişsiz hava şəraiti üzündən meyvə-tərəvəzin məhsuldarlığı aşağı düşüb. Qıtlıq yaşanır. Belə olduğu təqdirdə, qiymətlərin düşəcəyini gözləmək absurddur. Vaxt var idi, ölkəmizdən tonlarla pomidor ixrac edilirdi. Ancaq indi pomidor mövsümü olmasına baxmayaraq, Azərbaycana bu məhsul idxal olunur. Yerli pomidorlar isə demək olar ki, xəstədir, yararsızdır. Həmçinin, məhsulun miqdarı da çox azdır".

**■ Mövzu ilə bağlı iqtisadçı-ekspert Natiq Cəfərli isə hesab edir ki, mövcud bahalaşma ixracın artması ilə əlaqəlidir: "Əsas səbəb ixracın artmasıdır. Məsələn, keçən il pomidor ixracatında azalma var idi, bu il isə ixracat artıb.** Əsasən də Rusiya bazarlarına ixracatın artdığını görürük. Rəsmi rəqəmlər də bunu təsdiqləyir. Nəticə etibarilə ixracat artıqca daxili bazarda satış həcmləri azalır. İqtisadiyyatın qanuna görə bazardakı mal və məhsulun həcmi azalırsa, onun bahalaşması qaçılmaz olur. Odur ki, ixracatın artması Azərbaycanın daxili bazarında kənd təsərrüfatı məhsullarının bahalaşmasına səbəb olub".

**■ Kənd təsərrüfatı üzrə eksperti Vahid Məhərrəmov isə bahalaşmanın ixracla heç bir əlaqəsinin olmadığını düşünür. Onun sözlərinə görə, Azərbaycan adambaşına 86 kiloqram pomidor istehsal edir:**

"Bunun adambaşına 20 kiloqramı ixrac edilir. 66 kiloqram isə daxildə istehlak edilir. Başqa sözlə, 860 min ton pomidor istehsal edirik, onun 200 min tonunu ixrac edirik, 660 min tonu isə daxili istehlaka yönəlir. Bu isə əvvəlki illərlə müqayisədə xeyli çoxdur. Adi bir misal çəkim. Qonşu Gürcüstan adambaşına 15 kiloqram pomidor istehsal edir. Bizdə olan rəqəmlər isə daha çoxdur. Başqa bir məqam da var. Azərbaycan Rusiya bazarlarına pomidor ixrac edirsə, əvəzində eyni məhsulu digər ölkələrdən idxal edir. Son bir neçə ayda Türkmənistandan Azərbaycan pomidor idxal edilir. Bütün bunları nəzərə aldıqda deyə bilərik ki, bahalaşmanın ixracla əlaqələndirilməsi doğru deyil. Hava şəraitinin qeyri-sabit keçməsinin də pomidorun bahalaşmasına təsiri yoxdur".

Ekspertin sözlərinə görə bazarda qiymətin yüksəlməsi monopoliya ilə bağlıdır: "Abşeronda çoxsaylı böyük təsərrüfatlar var. Onlar pomidor istehsalı ilə məşğuldurlar. Xüsusən istixana pomidoru həmin sahibkarların əlindədir. Onlar kartel sövdələşməsi edirlər. Bizdə qış mövsümündə pomidorun qiyməti 5-6 manat, hətta daha yuxarı təklif olunur. Amma qonşu Türkiyədə bundan 3 dəfə ucuzdur.

Bizdə pomidor qışda 3 dollardan yüksək olduğu halda, Türkiyədə 1 dollar olur. Səbəb odur ki, bizdən fərqli olaraq Türkiyədə monopoliya yoxdur. Orada çoxsaylı topdansatış bazarları var, lakin belə bazar Azərbaycanda bir dənədir. Türkiyədə hər həftənin birinci günü fermerlər istehsal etdikləri pomidor, xiyar və digər tərəvəzləri özləri yarmarkalara çıxarırlar. Ankarada bütün rayonlarda bir neçə yerdə yarmarkalar keçirilir ki, kəndlilər istehsal etdikləri məhsulu özlərinə sərf edən, alıcılar üçün əlçatan qiymətə sata bilsinlər. Azərbaycanda isə topdansatış bazarının əlində geniş ticarət şəbəkələri var. Onlar məhsulları həmin şəbəkələrə göndərirlər".

*"Elə şərait yaradılmalıdır ki, Bakı şəhərinin ətrafında bir neçə topdansatış meyvə bazarı olsun*

*Nəticə etibarilə ixracat artdıqca, daxili bazarda satış həcmləri azalır*

*Azərbaycanda topdansatış bazarının əlində geniş ticarət şəbəkələri var*

✍ *Sevinc*

# Tibb müəssisələrində qeydiyyatda olan uşaqların sayı açıqlanıb



**2023-cü ildə tibb müəssisələrində görmə qabiliyyəti tam məhdud olan 843 uşaq qeydiyyatda olub. Bu barədə Statistika Komitəsinin yaydığı məlumatda əks olunub.**

Bildirilib ki, onlardan 13 nəfəri 1,5 yaşa, 48 nəfəri 1,5 - 3, 122 nəfəri 4-6 yaş aralığında, 70 nəfəri 7 yaşda, 196 nəfəri 8-10 yaş, 394 nəfəri 11-17 yaş aralığında olan şəxslər olublar.

Həmçinin qeyd edilib ki, ötən il tibb müəssisələrində görmə qabiliyyəti qismən məhdud olan 18 913 uşaq qeydiyyatda olub. Bunlardan 186 nəfəri 1,5 yaşdan aşağı, 452 nəfəri 1,5 - 3 yaş aralığında, 1 519 nəfəri 4-6 yaş aralığında, 1 506 nəfəri 7 yaşda, 4 312 nəfəri 8-10 yaş aralığında, 10 938 nəfəri isə 11-17 yaş aralığında şəxslər olublar.

Eyni zamanda 2023-cü ildə tibb müəssisələrində eşitmə qabiliyyəti tam məhdud olan 1 418 uşaq, eşitmə qabiliyyəti qismən məhdud olan 2 429 uşaq, əqli geriliyi olan 6 009 uşaq, nitq pozuntusu olan 5 047 uşaq, poliomielit və serebral iflic qalığı olan 4 218 uşaq, skolioz (onurğa sütununun əyilməsi) xəstəliyi olan 5 528 uşaq qeydiyyatda olub.

# Tehran İsrailə cavab vermək hüququnu özündə saxlayır

**Tehran İsrailə cavab vermək hüququnu özündə saxlayır. Bunu İran Prezidenti Məsud Pezəşkian fransalı həmkarı Emmanuel Makronla telefon danışığında deyib.**

Tərəflər həmçinin HƏMAS lideri İsmayıl Haniyənin öldürülməsindən sonra yaranan regional gərginliyi müzakirə ediblər. Xatırladaq ki, İ.Haniyə iyulun 31-də İran Prezidenti Məsud Pezeşkianın andiçmə mərasimində iştirak etdikdən sonra Tehrandakı iqamətgahında öldürülüb. Bundan sonra İran rəsmiləri İ.Haniyənin qisasının alınacağı barədə bəyanat veriblər.

# Boykot qərarının heç bir effekti yoxdur

***Azərbaycan Milli İstiqlal Partiyasının lideri, siyasətçi Etibar Məmmədovla hafta.az üçün budəfəki söhbətimizdə sentyabrın 1-də Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərdə AMİP-in və digər müxalif partiyaların iştirakı, "HƏMAS" lideri İsmayıl Haniyənin Tehrandakı qətli olayının regiondakı digər proseslərlə əlaqəsi, Yaxın Şərqdəki son olayların III Dünya savaşına gətirib çıxara bilməsi ehtimalı, ABŞ-də noyabrda gözlənilən prezident seçkiləri, Qarabağdan köçmüş ermənilərin geri qaytarılması barədə Rusiya və Qərbdən gələn təkliflər və digər məsələlər haqqında danışdıq.***

## Müsahib

***- AMİP sentyabrın 1-də Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərdə iştirak etmək qərarı verib. Sirr deyilsə, özünüz hansı səbəblərdən bu seçkilərdə namizədliyinizi irəli sürmədiniz?***

- Azərbaycan Milli İstiqlal Partiyası seçkilərdə iştirak edir. Namizədlərin çoxu qeydiyyatdan keçib... Özüm isə 20 ildən çoxdur, heç bir seçkiyə qatılmıram...

***- Bəzi partiyalar və onların liderləri, guya növbədənkənar parlament seçkilərinin normal, demokratik keçməyəcəyi bəhanəsi ilə onları boykot qərarı veriblər. Mövcud şəraitdə bu, həmin partiyaların maraqları üçün nə dərəcədə effekt verə biləcək bir qərardır?***

- Hesab edirəm, seçkiləri boykot qərarının heç bir effekti yoxdur. Sadəcə, bu, seçkilərdə iştirak etməmək kimi bir şeydir. Boykot o zaman effektli olur ki, heç kəs seçkilərdə iştirak etməsin və iştirak etməmək haqqında nəticəni də rəsmi şəkildə əldə etmiş olsun. Yəni hazırda Azərbaycanda seçkilərdə seçicilərin sayına görə heç bir limit, kvota nəzərdə tutulmur. Əvvəllər seçkilərin baş tutması üçün seçicilərin 50+1 faizinin iştirakı vacib idi. İndi lap bir nəfər də iştirak etsə, seçki baş tutmuş sayılır. Bir sözlə, mövcud şəraitdə seçkiləri boykot etməyin hakimiyyətə də heç bir təsiri yoxdur...

***- "HƏMAS" lideri İsmayıl Haniyənin Tehrandakı qətli olayında zaman baxımından diqqəti cəlb edən bir məsələ də sui-qəsdin məhz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyulun 28-də İsrailə xitabən hədəsindən bir gün ötəndən sonra baş verməsidir. Bu, təsadüf idimi?***

- Zənnimcə, bu qətlin Ərdoğanın İsrailə qarşı çıxışı ilə heç bir əlaqəsi yoxdur. Onsuz da İsmayıl Haniyə çoxdan hədəfdə idi, bundan əvvəl bir neçə dəfə sui-qəsd cəhdinə məruz qalmışdı... O da var ki, "HƏMAS" liderinə onun və mühafizəçisinin ölümü ilə nəticələnən son sui-qəsdin İranın ən çox qorunan "SEPAH"a məxsus binalarının birində baş verməsi bu dövlətə qarşı böyük təhqirdir. Eyni zamanda bu, İran dövlətinin zəifliyini göstərir və sübut edir ki, İsrail kəşfiyyatı İran daxilində çox böyük təsir imkanlarına, agentura şəbəkələrinə malikdir və bu dövlətin həm hakimiyyət qurumlarında, həm də strateji əhəmiyyətli hərbi və təhlükəsizlik strukturlarında öz adamlarını yerləşdirə bilib...

***- "HƏMAS" liderinin aradan qaldırılmasından sonra İsraillə "Hizbullah" və sonra da İran arasında genişmiqyaslı savaş başlayacağı və bunun dünya müharibəsinə çevriləcəyi haqda proqnozlar verilir. Siz necə düşünürsünüz, belə bir şey mümkündürmü?***

- Nə qədər gərginlik olsa da, son proseslərin genişmiqyaslı savaşa və dünya müharibəsinə çevrilməsi ehtimalı yoxdur. İran bir az hay-küy edib yerində oturacaq. Onun İsrailə qarşı güc tətbiq etmək üçün elə bir imkanı da yoxdur. Hesab edirəm, son nəticədə Tehran simvolik olaraq nəsə bir təxribat törədib sakitləşəcək...

***- Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun Tehrana, oradan isə Bakıya gəlişinə necə şərh verərdiniz?***

- Yəqin ki, elə Şoyqunun da təcili səfərləri İsraillə İran arasındakı gərginliklə bağlıdır. Yaxın Şərqdəki gərginliyin böyük müharibəyə çevrilməsi Rusiyanın da marağında deyil. Amma regionda vəziyyətin cızığından çıxması və böyük savaş başlanması Qərbin bəzi dairələrinin marağında ola bilər. Belə görünür ki, Moskva bunda maraqlı deyil və ola bilsin ki, məsləhətləşmələr aparır və savaş başlayacağı halda İrana bəzi silahları verə bilər. Zənnimcə, Rusiya heç vaxt İsrailə qarşı heç bir hərəkət etməyəcək...



**Etibar Məmmədov,**
Azərbaycan Milli İstiqlal Partiyasının lideri, siyasətçi

> *"İstər Ermənistandakı proseslərin, istərsə də Gürcüstandakı seçkilərin nə ilə nəticələnəcəyini söyləmək çətindir*

***- Son bəyanat, Təl-Əviv və Tehrana mesajlardan belə anlaşılır ki, ABŞ də genişmiqyaslı müharibənin marağında deyil?..***

- Ağ ev həm Ukraynada, həm Qəzzada hərbi əməliyyatların davam etdiyi mövcud durumda daha bir savaş ocağının yaranmasında maraqlı olmayacaq. O da var ki, "HƏMAS"ı da heç bir ərəb dövləti müdafiə etmir. Yəni diqqət etmisinizsə, 7 oktyabr 2023-ci il hadisələrindən bu yana Fələstin muxtariyyətinə qarşı heç bir hərbi əməliyyat həyata keçirilməyib və döyüşlər yalnız "HƏMAS"ın nəzarətindəki ərazilərdə gedir. İsrail Livan ərazisindəki "Hizbullah"a qarşı arabir əməliyyatlar aparır ki, onlar da İranın nəzarətindədir. "HƏMAS"ın özü də İranın nəzarətindədir. Göründüyü kimi, ərəb dövlətlətlərindən heç biri istər "HƏMAS"ı, istərsə də "Hizbullah"ı dəstəkləmir, müdafiə etmir və onları faktiki olaraq terror təşkilatı hesab edir...

***- Bir az da ABŞ-dəki seçkilərdən danışaq... Demokrat namizəd Kamala Harrisin respublikaçı Donald Tramp üzərində qələbə şanslarını necə dəyərləndirirsiniz?***

- Demokrat namizəd Kamala Harrisin respublikaçı Donald Tramp üzərində qələbəsi mümkündür. Hələlik şansları təxminən bərabərdir. Təbii ki, Co Bayden namizəd kimi qalsaydı, Tramp böyük ehtimalla qalib gələcəkdi. Vəziyyət indi bir az dəyişəcək...

***- Harrisin bir siyasətçi kimi hansısa xüsusi bir üstün cəhətlərini görürsünüzmü?***

- Harrisin elə bir nəzərə çarpan üstün cəhəti yoxdur. Ümumiyyətlə, neçə illərdir Amerikada, sanki bir lider böhranı baş qaldırıb. Yəni uzun müddətdir ki, Birləşmiş Ştatlarda gənc, enerjili və əksəriyyət tərəfindən qəbul edilən bir lider üzə çıxa bilmir. Ona görə də bu cür adamlar gəlib prezident ola bilirlər. İndi də ABŞ prezidentliyi üçün heç bir potensialı olmayan, təsadüfən vitse-prezidentlikdən gəlib prezidentliyə namizəd olan Harrisin də lider kimi şəxsi keyfiyyətlərində elə bir ciddi üstünlüyü yoxdur. Sadəcə, üstünlüyü ondan ibarətdir ki, anti-Tramp qüvvələri, afroamerikalılar, qadınlar və "LGBT" tərəfdarları onu müdafiə edəcəklər ki, bu da çoxluq əmələ gətirə bilər...

***- ABŞ-dəki seçkilərdə demokrat Kamala Harrisin, yaxud respublikaçı Donald Trampın qalib gəlməsinin həmin dövlətin Azərbaycanla münasibətlərinə ciddi təsiri ola bilərmi?..***

- Zənnimcə, ABŞ-dəki prezident seçkilərində demokrat, yaxud respublikaçı namizədin, başqa sözlə Trampın və ya Harrisin qalib gəlməsinin Azərbaycan üçün elə bir ciddi fərqi olmayacaq. Azərbaycan bir dövlət olaraq qarşısına qoyduğu əsas vəzifəni yerinə yetirib: torpaqlarını düşmən işğalından azad edib, bütün ərazisində dövlət suverenliyi bərpa olunub. Hazırda isə tam təminat almaq üçün Ermənistanla sülh müqaviləsinin imzalanması qalıb. Bunun üçün danışıqlar gedir. Əsas məsələ yenə də Ermənistandan asılıdır. Bu ölkə konstitusiyasında rəsmiləşmiş ərazi iddialarından əl çəkməsə, sülh müqaviləsi mümkün olmayacaq.

Düzdü, demokratlar və ya respublikaçıların hakimiyyətə gələcəkləri halda Azərbaycanla bağlı proseslərə və yaxud konkret Azərbaycan-Ermənistan münasibətlərinə müəyyən dərəcədə təsir etmək imkanları ola bilər. Ancaq bütün hallarda ABŞ dövlət olaraq strateji maraqları baxımından Azərbaycan hakimiyyəti ilə əməkdaşlığı vacib sayır...

***- Bəs Amerikada hakimiyyət dəyişikliyi baş verdikdən sonra konkret olaraq demokratik dəyərlər, insan hüquqları və s. baxımından Azərbaycana fərqli münasibət bəslənə bilərmi?***

- Xeyr. Onlar üçün həmin dəyərlər o qədər də əhəmiyyətli deyil. Görürük ki, ABŞ-nin dünyadakı ən yaxın müttəfiqlərinin əksəriyyəti demokratiyadan çox uzaq olan ölkələrdir...

***- Rusiya hərbçiləri, artıq Ermənistanın Zvartnots hava limanından da çıxdı. Belə fikirlər var ki, Kremlin Qafqazdakı varlığı payızda Ermənistanda baş verəcək proseslərlə yanaşı, oktyabrın sonunda Gürcüstanda keçiriləcək parlament seçkilərindən də xeyli asılıdır...***

- Təbii ki, hələ istər Ermənistandakı proseslərin, istərsə də Gürcüstandakı seçkilərin nə ilə nəticələnəcəyini söyləmək çətindir. Bütün hallarda Rusiyanın Güney Qafqazdakı mövqeləri zəifləyib və Kreml Azərbaycandan asılı vəziyyətə düşüb. Biz bunu dəyərləndirməliyik. Azərbaycan üçün mümkün qədər çox divident qazandırmalıyıq. Əsas odur, Rusiya hərbi birləşmələri Azərbaycan ərazisindən çıxıb. Onların qayıtmaq ehtimalı çox aşağıdır və demək olar ki, yoxdur. Belə bir vəziyyətdə isə biz Rusiyanın ABŞ və Fransa ilə nüfuz davasından yalnız qazana bilərik...

Konkret Gürcüstandakı parlament seçkilərinə gəldikdə, ola bilsin, seçkilərə az qalmış prezident Salome Zurabişvili həbsdə olan eks-prezident Mixail Saakaşvilini əfv etsin. Bu günlərdə belə informasiyalar dolaşmaqdadır. Belə olan halda, müxalif qüvvələrin imkanları çox genişlənəcək. Hazırda Gürcüstandakı demokratik qüvvələrin ümumi bir liderə ehtiyacı var. Xüsusən də həbsdən çıxan lider seçkilərin nəticələrinə çox təsir göstərə bilər...

***- Son vaxtlar həm Rusiyadan, həm Avropadan Qarabağdan köçmüş ermənilərin geri qaytarılması haqda təkliflər və fikirlər səslənir. Sizcə, onların geri qayıtması hansı halda mümkündür? Ümumiyyətlə, ermənilərin yenidən Qarabağda yerləşməsi bu gün və gələcəkdə Azərbaycanın maraqlarına nə dərəcədə uyğundur?***

- Azərbaycan tərəfi öz şərtlərini dəfələrlə bəyan edib. Yəni Qarabağdan köçmüş və 1991-ci ilədək Azərbaycan ərazisində qeydiyyatda olmuş ermənilər Azərbaycan vətəndaşlığını qəbul edəndən sonra burada daimi yaşayış hüququ ala bilərlər. Onlar heç bir halda vətəndaşlığı qəbul etmədən Qarabağda yaşaya bilməzlər. Vətəndaşlığı qəbul etmiş ermənilər isə sıravi vətəndaş kimi ölkəmiz üçün heç bir təhlükə törədə bilməz...

***✍ Sultan Laçın***



# COVID-in FLiRT ştamı daha yoluxucudur

**Koronavirus infeksiyasının bu yaxınlarda Ukraynada aşkar olunmuş yeni FLiRT ştamı əvvəlkilərdən fərqli olaraq daha yoluxucudur. Buna baxmayaraq, vaksinasiya hələ ki, effektiv profilaktik vasitə olaraq qalır.**

Bu barədə Ukrayna səhiyyə nazirinin müavini, Baş dövlət sanitar həkimi İqor Kuzin telemarafonun efirində bildirib. Kuzin xatırladıb ki, bu yaxınlarda Ukraynada yeni FLiRT subvariantının ilk üç hadisəsi qeydə alınıb: ikisi Kiyevdə və biri İvano-Frankovsk vilayətində.

"Bu, şərti olaraq insandan insana daha tez ötürülməsi və immunitet reaksiyasından daha çox qaçması ilə xarakterizə olunan subvariantlardan biridir, lakin ümumi simptomlar eynilə qalır: bədən temperaturunun yüksəlməsi, əsasən xəstəliyin ilk günlərində öskürək, baş ağrıları və əzələ ağrıları ola bilər" , - deyə o izah edib və peyvəndin gücləndirici dozasını almamış insanların yoluxma riskinin yüksək olduğunu qeyd edib. Kuzinin sözlərinə görə, yeni subvariant haqqında ilk məlumatlar hələ mart ayında daxil olub. Növbəti aylarda bir çox ölkələr COVID-19-a yoluxma hallarının artması barədə bildiriblər. Məsələn, Amerika Birləşmiş Ştatlarında göstəricilər 25 faiz artıb. Ümumdünya Səhiyyə Təşkilatının indiyə qədər FLiRT ilə bağlı hesablamaları təqdim etmədiyinə baxmayaraq, profilaktik peyvəndlər üçün istifadə edilən hazırkı vaksinin effektiv olduğuna dair məlumatlar var.

# Körpə gündə ən azı səkkiz dəfə ana südü ilə qidalanmalıdır



**Ana südündə olan maddələr qadının qidalanması ilə əldə edilir. Bunu Səhiyyə Nazirliyinin rəsmi instaqram hesabında K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun həkim-pediatrı Aygün Məmmədova bildirib.**

Onun sözlərinə görə, əvvəllər körpəyə süd verən qadının rasionu məhdudlaşdırılırdı və xüsusi pəhriz təklif edilirdi. Son zamanlar isə demək olar ki, həmin məhdudiyyət aradan qaldırılıb: "Ümumiyyətlə, ana südünün keyfiyyəti ananın pəhrizindən asılı deyil. Ana südü kifayət qədər sabit tərkibə malikdir və yalnız ananın qida rasionundan seçici şəkildə təsirlənə bilir. Yalnız suda həll olunan vitaminlərin (C və B qrup vitaminləri) tərkibi birbaşa ananın qidalanmasından asılıdır. Qida ilə B1, A və D vitaminlərinə olan ehtiyac ödənilmədikdə ana südündə həmin maddələrin miqdarı daha az olur. Odur ki, süd verən analar bədənlərinin kifayət qədər D və B qrup vitaminləri, dəmir, kalsium və sink almasını təmin etməlidirlər".

Həkim-pediatr qeyd edib ki, laktasiya dövründə arıqlama məqsədilə pəhriz tətbiq edilməməlidir: "Süd verən analarda qida ilə alınan enerjinin 80 faizi "süd istehsalı" üçün istifadə edilir. Buna görə süd verən analar gündəlik 1800 kaloridən az enerji qəbul etməməlidirlər. Laktasiya dövründə ananın yod və xolinə ehtiyacı artır və bir il ərzində onlara gündəlik 290 mikroqram yod və 550 milliqram xolin istehlak etmələri tövsiyə olunur.

Ona görə də körpəni əmizdirən analara balanslı şəkildə qidalanmaq məsləhət görülür. Körpə gündə ən azı səkkiz dəfə ana südü ilə qidalanmalı və hər ay orta hesabla 600-800 qram çəki artırmalıdır. Daha tez-tez qidalanma südün miqdarını və yağ tərkibini artırır".

A.Məmmədova onu da bildirib ki, süd verən analar yedikləri dəniz məhsullarının miqdarına və növlərinə diqqət yetirməlidirlər: "Əksər balıqlarda ana südü ilə körpəyə keçə bilən civə olduğuna görə civə səviyyəsi az olan balıqlar seçilməlidir. Həmçinin çox yüksək kofein qəbul edən anaların körpələrində əsəbilik yaranır, yuxu rejimi normal olmur. Buna görə süd verən analar daha az kofein istehlak etməli və spirtli içkilərdən istifadəni məhdudlaşdırmalıdırlar".



**■ Üzgüçülük üzrə üçqat olimpiya çempionu Adam Piti Parisdə keçirilən Olimpiya Oyunlarında idmançılara verilən yeməklərin keyfiyyətindən şikayətlənib. Bu barədə ?"iNews" məlumat yayıb.**

29 yaşlı britaniyalının sözlərinə görə, idmançılar Olimpiya kəndindəki restoranlarda onlara verilən balıqlarda qurd tapırlar. "Burada qidalanma idmançıların çıxış etməli olduğu səviyyədə deyil. Bacardığımız hər şeyi göstərməyə borcluyuq. Tokioda yeməklər heyrətamiz, Rioda isə inanılmaz idi. Amma bu dəfə... Növbə sistemi olmadığından yemək üçün 30 dəqiqə gözləməli oluruq. Mən ət istəyirəm, mübarizə aparmaq üçün mənə bu lazımdır. Evdə də belə qidalanıram. Bəs niyə mən nəyisə dəyişməliyəm? Mən də balığı sevirəm, amma idmançılar onun içində qurd tapırlar.



**■ "Ankara ümid edir ki, Azərbaycan və Gürcüstan Türkiyə ilə dəmir yolunda sərnişindaşımanın təşkili məsələsində Bolqarıstandan nümunə götürəcək".**

Bu barədə Türkiyənin nəqliyyat və infrastruktur naziri Əbdülkadir Uraloğlu Cənub-Şərqi Anadolunun Tatvan bölgəsinə Ankaradan turist qatarının göndərilməsi mərasimində bildirib. Nazir xatırladıb ki, bu gün İstanbul və Sofiya arasında qatarlar uğurla hərəkət edir. "Ümid edirik ki, yaxın vaxtlarda Azərbaycan və Gürcüstandan da oxşar təkliflər gələcək və Qarsa sərnişindaşıma layihəsini həyata keçirəcəyik," - deyə Ə. Uraloğlu qeyd edib. Uraloğlu diqqəti əsas halqası Bakı - Tbilisi - Qars dəmir yolu olan Orta Dəhlizin əhəmiyyətinə yönəldib.



**■ Bu il məktəbli formasını almaq üçün müraicət edənlərin sayı çox azdır. Bu barədə Trend-in suallarını cavablandırarkən Bakı Tikiş Evinin (BTE) satış müdiri Etibar Əzimov deyib.**

O qeyd edib ki, Tikiş Evinin Bakıda 11 satış mərkəzi var və hər biri məktəbli formaları ilə təmin edilib. "Valideynlər bəzən satış mərkəzindən kənar yerlərdən formalar alırlar. Amma bildirmək istəyirəm ki, bu uşaqların sağlamlığı üçün ziyanlıdır. Onlarda müəyyən allergik problemlər yarada bilər. Ancaq fabrik istehsalı olan məktəbli formaları alsınlar. Formaların qiymətlərinə gəldikdə isə, 20 faiz ucuzlaşma olub. Məktəbli şalvarı və ətəkləri 20 faiz endirim edilib. Bu ilə qədər şalvar və ətəklər 25 manat idi, bu ildən isə 20 manatdır.



**■ ABŞ Energetika Nazirliyi 2024-cü ildə "Brent" markalı etalon neftin orta qiyməti ilə bağlı proqnozunu 86,37 ABŞ dollarından 84,44 dollaradək endirib.**

ABŞ Energetika Nazirliyinin Enerji İnformasiya Administrasiyasının (EIA) hesabatına əsasən, 2025-ci ildə "Brent" neftinin orta qiymətinin 85,71 dollar təşkil edəcəyi ehtimal olunur (öncəki proqnoz - 88,38 dollar). Qeyd olunur ki, 2023-cü ildə "Brent"in orta qiyməti 82,41 dollar təşkil edib. Hesabata əsasən, WTI markalı xam neftin bir barelinin orta qiyməti 2024-cü ildə 80,21 dollar (öncəki proqnoz göstərici - 82,03 dollar), 2025-ci ildə isə 81,21 dollar (öncəki proqnoz - 83,88 dollar) səviyyəsində olacaq. Hesabatda vurğulanır ki, WTI markalı xam neftin bir barelinin orta qiyməti 2023-cü ildə 77,58 dollar təşkil edib.

AYNA
AZƏRBAYCAN YERÜSTÜ NƏQLİYYAT AGENTLİYİ

**■ Vətəndaşlardan daxil olan müraciətlər əsasında 65 taksi minik avtomobili Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən daşımalardan kənarlaşdırılıb. Bu barədə AYNA-ya istinadən xəbər verir.**

Məlumata görə, sərnişinlərdən taksi sahəsində qarşılaşdıqları müxtəlif problemlərlə bağlı həm taksi sifarişi operatoruna, həm də AYNA-nın sosial şəbəkə hesabları üzərindən, eləcə də "141" Çağrı Mərkəzinə müraciət etmələri və nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı barədə məlumatları təqdim etmələri xahiş olunur.



**■ Azərbaycanın yunan-Roma güləşçisi Sabah Şəriəti karyerasını başa vurub. Bu barədə Azərbaycan Güləş Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**

35 yaşlı pəhləvan Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarından sonra güləşlə vidalaşıb. O, Paris-2024-ü beşinci yeri tutaraq medalsız qalıb. Qeyd edək ki, Paris-2024 çərçivəsində ötən gün iranlı idmançı Amin Mirzəzadə rəqibi Sabah Şəriəti çiyninə qaldıraraq meydanda gəzdirib. Buna jestə səbəb Şəriətinin karyerasını bitirməsi olub. Xatırladaq ki, S.Şəriəti 2016-cı ildə Rio-de-Janeyrodakı olimpiadada bürünc mükafat əldə edib.

# Bazarda payı artan Çin avtomobilləri

***Avropa İttifaqı (Aİ) ölkələri noyabrda Çindən idxal edilən elektromobillərə rüsumların tətbiqini dəstəkləyə bilər. Bu barədə "Financial Times" Aİ-nin ticarət komissarı Valdis Dombrovskisə istinadən yazıb. Onun sözlərinə görə, Aİ ölkələri blokun avtomobil sənayesinin qorunmasının zəruriliyini dərk edir, çünki Çinin elektrik avtomobil bazarındakı payı çox sürətlə artır. Bu, həlli vacib olan problemdir.***



## Rəqabət

O qeyd edib ki, Çin Xalq Respublikası Avropa İttifaqının ikinci ən böyük ticarət tərəfdaşıdır və blok onunla əməkdaşlıqda maraqlıdır, lakin ikitərəfli ticarət münasibətlərini "qeyri-balanslaşdırılmış" adlandırıb.

■ **Daha əvvəl Avropa Komissiyasının (AK) rəsmisi Erik Mamer Brüsseldə keçirdiyi brifinqdə bildirmişdi ki, AK Çindən idxal edilən elektrik avtomobillərinə rüsum tətbiq etmək niyyətində deyil, bu addım isə Çin hökumətinin subsidiyaları səbəbindən Çin və Avropada istehsalçılar arasında yaranmış ədalətsiz vəziyyətdə balansın yaradılmasına yönəlib.**

Avropa Komissiyası bildirir ki, istehsalçıdan asılı olaraq rüsumlar 17,4 faizdən 37,6 faizə qədər olacaq. Üç Çin istehsalçısına aşağıdakı rüsumlar tətbiq ediləcək: BYD - 17,4 faiz, Geely - 19,9 faiz, SAIC - 37,6 faiz. Bundan əlavə, Avropa Komissiyasının bildirdiyinə görə, araşdırma zamanı əməkdaşlıq edən, lakin seçimə daxil edilməyən digər elektromobil istehsalçılarına 20,8 faiz, araşdırma zamanı əməkdaşlıq etməyən şirkətlərə isə 37,6 faiz rüsum tətbiq olunacaq. Bir istehsalçı - ABŞ-ın "Tesla" şirkəti Avropa İttifaqından Çindən idxal etdiyi elektromobillər üçün fərdi idxal rüsumu dərəcəsinin hesablanmasını xahiş edib, bu dərəcə daha sonra hesablanacaq.

Qeyd edək ki, son illər Azərbaycana idxal olunan elektromobillərin sayında da artım müşahidə olunur. Bu avtomobillər ölkəyə güzəştli şərtlərlə gətirilir və gömrük rüsumundan azaddırlar. Belə ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, zavod buraxılış tarixindən 3 ilədək ötmüş elektrik minik avtomobilləri idxal gömrük rüsumundan azad edilib. Araşdırmalar göstərir ki, hazırda Azərbaycana idxal edilən elektromobillərin çoxu məhz Çindən gətirilir. 2023-cü ilin statistikasına görə, ötən il ölkəmizə idxal edilən elektromobillərin 2250 ədədi (79,357 milyon dollar) Çindən, 255 ədədi (22,959 milyon dollar) Almaniyadan, 132 ədədi (4 milyon dollar) ABŞ-dən, 33 ədədi (1,332 milyon dollar) Cənubi Koreyadan, 28 ədədi (393 min dollar) Yaponiyadan, 17 ədədi (1,164 milyon dollar) Belçikadan alınıb. Yaponiyadan və ABŞ-dən gətirilən elektromobillər arasında "ikinci əl" maşınlar üstünlük təşkil edir. Buna görə də onların qiymətləri nisbətən aşağıdır. Digərləri, o cümlədən Çindən idxal edilən avtomobillər isə əsasən yürüş məsafəsi sıfır kilometr olan avtomobillərdir. Qiymətlərə baxdıqda görürük ki, hər avtomobilin öz qiyməti olur. Qiymətin formalaşmasında modelinin də rolu çoxdur. Ən ucuz hibrid avtomobil 17-18 min dollardır. Bahalıların qiyməti də 35 min dollardan başlayır.

"Birinci əl" elektromobillər arasında ən ucuzları Çin istehsalı olan maşınlardır. Bu ölkədən idxal edilən avtomobillərin orta qiyməti 35,2 min dollardır. Burada bir incə məqam da nəzərə alınmalıdır. Çindən idxal edilən avtomobillər arasında yerli şirkətlərlə bərabər dünyanın tanınmış avtomobil şirkətlərinin istehsal etdiyi elektromobillər də var. Sözügedən məkan dünyada ən çox avtomobil istehsal edən ölkədir və son illərdə elektromobil istehsalında da daha böyük nəticələr əldə edib. İndi demək olar ki, bütün tanınmış avtomobil şirkətləri bu ölkədə elektromobil istehsalı ilə məşğul olur.

Çin Avtomobil İstehsalçıları Birliyinin məlumatına görə, 2023-cü ildə burada yerli avtomobillərin ixracı rekord həddə - 5,26 milyon ədədə çatıb. Ölkə daxili bazarı da daxil olmaqla, satılan maşınların sayı isə 25,5 milyona bərabər olub. Nəticədə Çin Yaponiya, Almaniya və Cənubi Koreyanı qabaqlayaraq əsas dünya ixracatçısı adını qazanmağa müvəffəq olub. Yüksək göstəricinin əsas hərəkətverici qüvvəsi, Rusiyanın Çindən avtomobil idxalını 2022-ci illə müqayisədə ən azı 5 dəfə - 800 min ədədə qədər artırmasıdır.Sanksiyalar və geosiyasi gərginlik fonunda, Çin istehsalçıları bazardan getmək məcburiyyətində qalan rəqiblərinin yerini tutublar.

> *Çin avtomobillərinin yerli bazarda payı ancaq bazar iştirakçılarının başqa ölkələrin istehsalı olan modellərə üstünlük verəcəyi təqdirdə azala bilər*

> *Həm elektromobillər, həm də Çin istehsalı olan avtomobillər haqqında çoxlu miflər var*

Bəs, görəsən, Azərbaycan yerli bazarda rəqabəti qorumaq məqsədilə Çində istehsal olunan elektromobillərə gömrük rüsumu tətbiq edə bilərmi? Ümumiyyətlə, Çin elektromobillərinin keyfiyyət göstəriciləri hansı səviyyədədir?

■ **Məsələni qəzetimizə şərh edən nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov deyib ki, Çinlə Azərbaycan arasında çoxşaxəli əməkdaşlıq mövcuddur:**

"Məlum olduğu kimi, ötən ay Azərbaycan Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikası Prezidenti arasında görüş baş tutub. Həmin görüşdə "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Bu bəyannamə Çin və Azərbaycanı rəsmi olaraq strateji tərəfdaşlara çevirir. Həmin sənəddə nəqliyyat vasitələrinə dair bənd də yer alıb. Ölkədə elektrik mühərrikli avtobusların istehsalı sahəsində Çinin "BYD Company Limited" şirkəti ilə əməkdaşlığa başlanılıb. 2024-cü ilin noyabr ayında Azərbaycanda keçiriləcək COP29 tədbiri çərçivəsində BYD şirkətinin 160 ədəd elektrik mühərrikli avtobusunun və 100 ədəd elektrik enerji doldurucusunun ölkəmizə gətirilməsi ilə bağlı sifariş verilib. Avtobusların yerli istehsalına isə 2025-ci ildə başlanılması planlaşdırılır. Yəni, iki ölkə arasında çoxşaxəli siyasi və iqtisadi əməkdaşlıq mövcuddur. Bu baxımdan düşünmürəm ki, Azərbaycan digər ölkələr kimi Çində istehsal olunan elektromobillərə idxal rüsumu tətbiq etsin".

Onun sözlərinə görə, Çin avtomobillərinin yerli bazarda payı ancaq bazar iştirakçılarının başqa ölkələrin istehsalı olan modellərə üstünlük verəcəyi təqdirdə azala bilər: "Hələ ki, Çin avtomobilləri bazarda öz mövqeyini qoruyub saxlayır. Gələcəkdə əgər bazar iştirakçıları başqa ölkələrin istehsalı olan modellərə üstünlük verərsə, o zaman vəziyyət dəyişə bilər. Amma bu prosesə qeyd etdiyim kimi, hökumətin inzibati qaydada müdaxiləsi gözlənilmir". Çin elektromobillərinin keyfiyyət göstəricilərinə toxunan nəqliyyat məsələləri üzrə ekspert Yasin Mustafayev isə deyib ki, bu avtomobillər keyfiyyət baxımından da yüksək səviyyədədir: "Ümumiyyətlə, həm elektromobillər, həm də Çin istehsalı olan avtomobillər haqqında çoxlu miflər var. Mən özüm də 2 ilə yaxındır ki, Çin istehsalı olan elektromobildən istifadə edirəm. Hətta bu yaxınlarda ikincisini də almışam. Şəxsi təcrübəmdən çıxış edərək deyə bilərəm ki, indiyədək bu avtomobillərdə heç bir xoşagəlməz hallarla qarşılaşmamışam. Elektrikli avtomobillər həm komfortludur, həm də qənaətcildir. Digər avtomobillərlə müqayisədə 80-90 faiz qənaət deməkdir. Daxiliyanma mühərrikləri olmadığından avtomobilin xarab olma ehtimalı da çox azdır.

Elektromobil batareya, elektrik mühərriki və "beyindən" ibarətdir, əlavə xərc yaradan detallar yoxdur. Çin batareyalara ömürlük zəmanət də verir. Elektromobillərin, guya mənfi cəhətləri haqqında süni ajiotaj yaratmaqla, bundan istifadəni azaltmağa çalışırlar. Bu, çox güman ki, digər yanacaq növlərinin aktual qalmasına nail olmaq üçün bu yollara əl atırlar. Ümumilikdə hesab edirəm, Çin dünyada elektromobil istehsalı və satışı üzrə dominatlığını gələcəkdə də qoruyub saxlayacaq".

*Sevinc*

# Aqrar sığortaya maraq artır

**Azərbaycanda aqrar sığorta mexanizminin əhatə etdiyi əkin sahələrinin həcmi artır. Aqrar Sığorta Fondundan verilən məlumata əsasən, cari ilin yanvar-iyun aylarında ölkədə 384 min hektar əkin sahəsi sığortalanıb. Ötən ilin eyni dövrü ilə müqayisədə sığortalanan əkin sahələri 58 min hektar və ya 18 faiz artıb. Bu dövrdə ən çox sığortalanan kənd təsərrüfatı bitkiləri buğda, arpa, qarğıdalı, pambıq, eləcə də çəltik, şəkər çuğunduru, fındıq və nar bağları olub.**



Sığortalı sahələrdə artım bütün bitkilər üzrə qeydə alınıb. Belə ki, sığortalanan pambıq sahələri 2,3 dəfə, çəltik əkinləri 2,2 dəfə, nar bağları 4,5 dəfə, arpa sahələri təqribən 2 dəfə, buğda sahələri isə 1,3 dəfə artıb. Bu ilin yanvar-iyun aylarında 11 milyon 183 min manat aqrar sığorta haqları toplanıb. Bu vəsaitin 10 milyon 189 min manatı bitkiçilik sığortası üzrə ödənilib və əkin sahələrinə ümumilikdə 418 milyon manat sığorta təminatı verilib. Ümumilikdə isə sığortalanan təsərrüfatlar üzrə verilmiş sığorta təminatının həcmi 430 milyon manata yaxın olub.

Qeyd olunub ki, Azərbaycanda aqrar sığorta dövlət dəstəyi ilə təqdim edilir - sığorta haqqının 50 faizini fermerlərə dəstək üçün dövlət özü ödəyir. Nəticədə fermerlər cüzi ödəniş etməklə təsərrüfatlarını çoxsaylı risklərdən sığorta edə bilirlər. Aqrar Sığorta Fondunun fəaliyyəti və aqrar sığorta şərtləri barədə daha ətraflı məlumatı fondun rəsmi internet səhifəsindən (www.asf.gov.az) əldə etmək olar. Maraqlıdır, görəsən, sığortalanan əkin sahələrinin həcminin artmasına hansı amillər təsir göstərib? Ümumiyyətlə, sığorta şirkətləri aqrar sığorta növünə nə dərəcədə maraq göstərirlər?

■ **Məsələni qəzetimizə şərh edən Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli deyib ki, ümumilikdə Aqrar Sığorta Fondu bu prosesdə maraqlıdır:** "Bildiyiniz kimi, Aqrar Sığorta Fondu dövlətə məxsus qurumdur. Və bu qurumun ətrafında bir neçə sığorta şirkəti var. Həmin şirkətlər sığorta üçün nə qədər çox müştəri taparsa, o qədər çox qazanır. Çünki aqrar sığorta dövlət təminatlı sığortadır. Sığorta hadisəsi baş versə belə sığorta şirkətləri heç nə itirmir. Yəni, müstəqil şəkildə sığorta şirkətləri bu sığorta növünə vəsait xərcləmirlər. Dünyada ilkin mərhələdə Azərbaycandakı aqrar sığorta modelindən istifadə edilib. Hətta qonşu Türkiyədə bəzi strateji sahələrdə indi də bu modeldən istifadə olunur. Ona görə də yerli sığorta şirkətləri aqrar sığorta növünə maraq göstərirlər. Nəticədə aqrar sığorta mexanizminin əhatə etdiyi əkin sahələrinin həcmi ilbəil artır". Ekspert vurğulayıb ki, aqrar sektorda risklər sığortalandıqca, sahibkarların bu istiqamətdə fəaliyyətə marağı artır:

> *Sığorta hadisəsi baş versə belə sığorta şirkətləri heç nə itirmir*

"Kənd təsərrüfatında gəlirlilik yüksək olmadığı üçün aqrar sahəyə olan sığorta ödənişlərinin artması sahibkarların bu sahəyə marağını artırır. Bu formada sektorun inkişafına müsbət təsir göstərə bilər. Bu sahədə maarifləndirmənin genişləndirilməsi və təbliğatın düzgün qurulması hesabına sahibkarların sığortalanmaya meyli daha da artıb".

*Müşfiq*

Təhsil




# Bəzi dərsliklər yenilənəcək

***Yeni tədris ilində bəzi dərsliklər yenilənəcək. Artıq ümumi təhsil məssisələrinin müəyyən sinifləri üçün 67 adda dərslik yenidən hazırlanıb və ya təkmilləşdirilib. Bunu jurnalistlərə müsahibəsində Elm və Təhsil Nazirliyinin əməkdaşı Günel Seyidova deyib. O bildirib ki, bunlardan VI sinif üzrə coğrafiya, VII sinif üzrə isə kimya, fizika, biologiya dərslikləri Sinqapurun dərslik sahəsində mütəxəssislərinin köməyilə hazırlanıb. G.Seyidova həmin dərsliklərdə digər qabaqcıl təhsil institutlarının tətbiq etdiyi öyrənmə üsullarından istifadə olunduğunu söyləyib:***

"Sözügedən dərsliklərdə yeni yanaşmalardan, yeni pedaqoji texnologiyalardan geniş istifadə edilir. Bu dərsliklər 2023-2024-cü tədris ilində seçilmiş pilot siniflərdə sınaqdan uğurla keçib. Həmin dərsliklər əsasında tədris aparan müəllimlər üçün daha əvvəl müvafiq təlim keçirilib. Yeni dərsliklər şagirdlərin yaş səviyyəsinə uyğun hazırlanıb. Terminlər şagirdlərin yaş səviyyəsinə uyğun təqdim olunub. Əlavə nəzəri biliklərdən çox istifadə edilməyib, mövzular şagirdlərin yeni biliklərini necə istifadə etməsini, bacarıqlarının formalaşmasını hədəfləyib. Hazırda V sinif riyaziyyat və Azərbaycan dili dərslikləri də yenilənib. V sinif Azərbaycan tarixi, IX sinif Azərbaycan tarixi, IX sinif ümumi tarix dərslikləri yenilənib. V sinif ingilis dili dərsliyi Kembric Universitetinin mütəxəssisləri tərəfindən hazırlanıb. Əlavə olaraq bu dərsliklər ikihissəli hazırlanıb. Bu şagirdlərin çantalarının yüngül olması üçün müəyyən edilib". Dərsliklərin yenilənməsi prosesi demək olar ki, hər il aparılır. Valideynlər bu prosesdən narazıdırlar. Onlar hesab edirlər ki, dərs vəsaitlərinin hər il yenilənməsi tədrisin keyfiyytinə mənfi təsir göstərir.

Bəs, görəsən, ekspertlər bu barədə nə düşünürlər? Yeni tədris ilində bəzi dərsliklərin yenilənməsinə səbəb nədir?

■ **Məsələ ilə bağlı təhsil eksperti Kamran Əsədov bildirib ki, dərsliklərdə təkcə, dizayn və formanın deyil, informasiya yükü və akademik ifadələrin də dəyişməsi nəsillər arasında zənciri qırır:** "Artıq bir neçə ildir ki, orta ümumtəhsil məktəblərində 5-ci və 6-cı siniflərdə təbiət dərsi keçilir. Təbiət fənni daxilində coğrafiya, biologiya, fizika və kimya fənlərinin birləşmiş halda tədrisi yeni dərslikləri zəruri edir. Yəni indiki 6-cı, 7-ci sinfə keçən uşaqlar üçün əvvəlki illərdə istifadə olunan təbiət dərsliyi digər siniflərdə istifadə olunan coğrafiya, fizika, biologiya, kimya fənni ilə kifayət qədər ziddiyət təşkil edir. 4 fənnin yeni məzmunda tədris olunması ona görə baş verir ki, həmin fənlər aşağı siniflərdə təbiət fənni adı altında tədris olunur. Bu qəbul imtahanlarında kifayət qədər çətinlik yaradacaq. Belə ki, Dövlət İmtahan Mərkəzi (DİM) test tapşırıqlarını hazırlaya bilməyəcək. Yəni 5-ci və 6-ci siniflərdə təbiət fənni keçən uşaqlar 7-ci sinifdən ayrıca coğrafiya, fizika, biologiya fənni keçirlər. Amma onlarla bərabər oxuyan uşaqlar digər siniflərdə bu fənləri daha geniş keçirlər. Yəni bu yeni 4 fənn məzmun baxımından biraz fərqlənəcək. Bu, gələcəkdə qəbul imtahanlarında çətinlik yaradacaq, həmçinin hazırlıq kurslarında dərs keçən müəllimlər üçün ziddiyyət ortaya çıxacaq. Odur ki, bu yaxşı hal deyil. Təbii ki, pilot olduğu üçün müvafiq qurumların bu məsələləri nəzarətdə saxlayacağına inanıram".

> *Bu, qəbul imtahanlarında kifayət qədər çətinlik yaradacaq*

> *Dərsliklərin hazırlanmasında Nazirlər Kabinetinin müvafiq qərarı əsasında informasiya yığcam, dəqiq və elmilik şərtləri olmalıdır*

Ekspert hesab edir ki, fənlərin yeni məzmunda tədrisi zəruridir, çünki ümumtəhsil məktəblərində istifadə olunan dərsliklərin əksəriyyəti şagirdlərin yaş xüsusiyyətinə və psixologiyasına uyğun deyil: "Tədris üçün ifadələr akademikdir. Şagirdlər bu dərslikləri təkbaşına öyrənə bilmirlər. Yeni məzmunda tədris olunacaq fənlər şagirdlərə müəllim olmadan öyrənməyi, tətbiq etməyi, müqayisə etməyi, təhlil etməyi öyrətməlidir və bu bacarıqları formalaşdırmalıdır. Bu mənada Cənubi Koreya, Sinqapur, Türkiyədə istifadə olunan dərsliklər şagirdlərə daha uyğundur. Odur ki, bu ölkələrin təcrübəsindən də faydalanmaq olar. Yeni dərsliklər məzmun baxımından daha rahat, daha anlaşıqlı olmalıdır. Dərsliyi yazan müəlliflər həmin dərsliklərin aşağı siniflər üçün olan məzmunundan xəbərdar olmalıdır.Yeri gəlmişkən, hesab edirəm ki, dərslik mərkəzi yaradılmalıdır. Bu gün dərsliklərin hazırlanması üçün Elm və Təhsil Nazirliyi sifariş verir, nəşriyyatlar müəlliflərdən ibarət komanda yığırlar, tenderə daxil olurlar. Tenderdə qalib gələn dərsliyin müəllifləri aşağı sinif dərsliklərindən, yaxud digər fənlərdən xəbərdar olmurlar. Dərsliyin yazılmasında ilk meyar fənlərarası və siniflərarası əlaqənin qurulmasıdır. 4 yeni məzmunda yazılacaq dərslik aşağı siniflərinkindən ciddi şəkildə fərqlənməməlidir ki, şagirdlərdə çaşqınlıq yaratmasın. Xüsusilə bura coğrafiyanı aid etmək olar. Elə informasiya var ki, şagirdlər üçün yeni olacaq, amma əvvəlki informasiya ilə ziddiyət təşkil etməməlidir.

Həmin uşaqlar sonradan qəbul imtahanına gedəcəklər. Ən azı şagirdlərə keçilməyən mövzular tədris materiallarından birmənalı şəkildə çıxarılmalıdır. Dərsliklər elə məzmunda olmalıdır ki, şagirdlər müəllim olmadan da mövzuları öyrənə bilsinlər. Bu dərsliklər yazılmamışdan öncə müəllimlər üçün təlimlər keçilməlidir ki, müəllimlər dərslikləri birinci özləri mənimsəyə bilsinlər. Tədris ili sentyabrın 15-də başlayır. Müəllim dərsliklə şagirdlərlə bərabər tanış olur. Müəllimlər proqram qurmalı, kurrikulumda hansı məzmun standartını tətbiq edəcəyini bilməlidir".

■ **Mövzu ilə bağlı təhsil eksperti Elçin Əfəndi deyib ki, hər il dərsliklərlə bağlı müəyyən dəyişikliklər həyata keçirilir: "İlkin olaraq pilot layihə təqdim edilir, baxılır və hər şey qaydasındadırsa, kütləvi nəşrə icazə verilir.** Dərsliklərin hazırlanmasında Nazirlər kabinetinin müvafiq qərarı əsasında informasiya yığcam, dəqiq və elmilik şərtləri olmalıdır. Bu amillər nəzərə alınaraq dərsliklərdə müəyyən dəyişikliklər olunur. Hazırda nəzərdə tutulan 6-cı sinif üzrə coğrafiya, 7-ci sinif üzrə isə fizika, kimya və biologiya fənnlərində olan dəyişikliklər Sinqapur modelinə istinad olunmuş dəyişiklikdir. Burada əsas məqsəd şagirdlər əldə etdikləri bilik və bacarıqları daha çevik formada tətbiq edə bilsinlər. Yəni bu tətbiqə qədər şagirdlər nəzəri hissəyə üstünlük verirdi. İndi isə nəzəri hissə lokonik şəkildə təqdim ediləcək. Daha çox təcrübə əsasında şagirdlər tətbiq etmə ilə bağlı çətinlik çəkməyəcəklər. Bu fizika, coğrafiya, kimya və biologiya fənnlərində tədris olunacaq. İndiyə kimi informatika fənnində belə dəyişiklik olmuşdu. Hazırda Azərbaycan dili fənni üzrə işlənilir. Müəyyən dəyişikliklər əlavə edəcəklər ki, şagirdlər öyrəndiklərini ptaktiki olaraq tətbiq edə bilsinlər. Düşünürəm, bu da müsbət qiymətləndirilməlidir".

*Sevinc*

# Planşetlərin bazar payı artıb

***Azərbaycanda planşetlərin bazar payı artıb. Bu haqda "Global Stats" analitik şirkəti məlumat yayıb. Məlumata görə, ötən ay planşetlərin ölkəmizdə bazar payı 0.96 faiz təşkil edib. Bu göstərici iyunda 0.67, mayda 0,95 faiz olub. Bundan başqa, ötən ay Azərbaycan bazarında mobil cihazların payı 75.78 faiz, masaüstü kompüterlərin payı isə 23,26 faiz təşkil edib. Yeri gəlmişkən, planşetlərin qlobal bazarda da payı yüksəlib. 2024-cü ilin ikinci rübündə planşetlərin qlobal bazarda satışı keçən ilin eyni dövrü ilə müqayisədə 22,1 faiz artaraq 34,4 milyon ədədə çatıb.***



Bu barədə IDC tədqiqat firmasının ilkin hesablamalarında bildirilib. Amerikalı Apple Inc. aprel-iyununda planşet tədarükünü 18,2 faiz (12,3 milyon ədədə qədər) artırıb ki, bu da 11 və 13 düymlük iPad Air və iPad Pro modellərinin payına düşüb. Cənubi Koreyanın "Samsung" şirkətinin plamşetlərinin satışları 18,6 faiz (6,9 milyon ədədə), Çinin "Lenovo" şirkətinin satışları 16,7 faiz (2,5 milyon ədədə qədər) artıb. Eyni zamanda, dünya bazarında üç ən böyük istehsalçının payı azalıb. Belə ki, planşet satışına görə Apple - 36 faizdən aşağı, Samsung - 20 faizdən bir qədər çox, Lenovo - 7,3 faiz paya malikdir. Bu arada, Çinin Huawei və Xiaomi şirkətləri satışlarında əhəmiyyətli artım nümayiş etdirib və qlobal bazarda iştiraklarını gücləndirib.

Qeyd edək ki, son illər informasiya kommunikasiya texnologiyalarının inkişafı, proqram təminatı sahəsində vəziyyətin yaxşılaşması, elektron xidmətlərin genişlənməsi və internetin sürətinin artması informasiya kommunikasiya texnologiyalarına aid olan məhsullara marağı artırıb. Məhz bununla bağlıdır ki, mobil telefon, planşetlərin və noutbukların yeni modelləri qısa müddətdə Azərbaycana ayaq açır və özünə geniş alıcı kütləsi tapır. Mobil cihazlara yüksək maraqla əlaqədar olaraq ölkəmizdə son illərdə noutbuk və planşetlərin, smartfon telefonlarını alış həcmi artır. Müxtəlif beynəlxalq təşkilatların apardığı monitorinqlər göstərir ki, insanlar mobil cihazlardan və onlarla bağlı xidmətlərdən daha çox yararlanır. İnsanlar əsasən smartfon telefonlara və planşetlərə maraq göstərir.

Amma son illər həm dünyada, həm də Azərbaycanda planşetlərə olan marağın azalması diqqətdən qaçmırdı. Statistik təhlillər də tədricən planşetlərin bazar payının azaldığını təsdiqləyirdi. Təbii ki, belə bir vəziyyətdə planşetlərin yenidən populyarlaşması maraq doğurur. Bəs, görəsən, Azərbaycan bazarında planşetlərin yenidən populyarlıq qazanmasına səbəb nədir? Bunun yeni tədris ilinin başlaması və COP-29 ərəfəsində bəzi təhsil müəssisələrində dərslərin onlayn formada keçiriləcəyi ilə əlaqəsi varmı?

Məlumat üçün bildirək ki, hazırda yerli mağazalarda müxtəlif qiymətə smatfon, planşet, noutboklar tapmaq mümkündür. Qiymətlər, məhsulun firmasına, yaddaşına və funksiyalarına görə dəyişir. Məsələn, yerli elektronika mağazalarında planşetlərin qiyməti 199 manatdan başlayır.

Ən bahalı planşetlərin qiyməti isə 4249,99 manatdır. Bəzi mağazalarda ən ucuz planşetlərə 30-40 manat, ən bahalı planşetlərə 400 manat endirim təklif olunur. Smartfonların qiymətinə gəlincə, ən ucuz smartfonlar 160 manatdan başlayır. Ən bahalı smartfonlar isə 5000 manatdır. Hazırda bazarda ən ucuz noutbuk 130 manat endirimlə 569,99 manata təklif edilir. Ən bahalı noutbuk 600 manat endirimlə 9699,99 manata təklif olunur.

■ **Mövzunu qəzetimizə şərh edən Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov bildirib ki, insanlar smartfonlar vasitəsilə bir sıra məsələləri həll etsələr də, iş və təhsil mühiti üçün daha geniş ekranlı texnoloji vasitələr əlverişli sayılır:**

"Bu gün həm də səyahət edən insanlar üçün planşet və noutbukdan istifadə etmək əlverişlidir. Hazırda noutbuklar o qədər aktual deyil. Çünki insanlar daha rahat hərəkət etmək istəyirlər. Planşet həm distant təhsil, həm məsafədən iş, həm də səyahətdə olan insanlar üçün əlverişli hesab olunur. Müşahidələr göstərir ki, telefon istifadəçiləri də daha geniş ekran konfortu üçün planşet istifadəsini artırıb. Eyni zamanda, bir çox texnologiyalar var ki, "bulud" üzərindən istifadə olunur.

> “
> *Planşet həm distant təhsil, həm məsafədən iş, həm də səyahətdə olan insanlar üçün əlverişli hesab olunur*

Hansı ki, istifadəçi həmin texnologiyanı smartfon üzərindən o qədər də istifadə edə bilmir. Hesab edirəm ki, məhz bu səbəbdən planşet daha üstün texnologiya halına gəlib. Məsələn, əvvəllər şəkilləri montaj etmək üçün bizə güclü kompüter və noutbuklar lazım idi. İndi hamısı "bulud" texnologiyasında olduğu üçün bizim güclü kompüter və noutbuklara ehtiyacımız yoxdur. Bu kimi məsələləri artıq planşetlə həll etmək mümkündür. Düşünürəm, hazırda planşet satışının artması "bulud" texnologiyalarının inkişafı ilə əlaqəlidir. Yaxın aylarda da artım tendensiyası davam edəcək".

*✍ Rəna*

# Natiqlik çempionatının qalibləri mükafatlandırıldı

**Ana dilimizin inkişafına töhfə vermək məqsədilə 1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili günündə "Nar"ın dəstəyi ilə təşkil edilən "Diksiya Akademiyası"nın "Ana dilində hekayəni danış" natiqlik çempionatının final mərhələsi uğurla yekunlaşıb.**




Çempionatın final mərhələsinə vəsiqə qazanan 11 iştirakçı qalib gəlmək üçün səhnədə 5 dəqiqəlik çıxışlarını təqdim ediblər. "Ana dilində hekayəni danış" natiqlik çempionatının qalibi öz xüsusi nitq istedadı ilə fərqlənən Zinyət Əliyeva olub, layihədə 2-ci yerin sahibi Murad Yunusov, 3-cü yerin sahibi isə Davud Muxtarov seçilərək "Nar" tərəfindən xüsusi hədiyyələrlə mükafatlandırılıblar.

"Nar"ın Korporativ Ünsiyyət və İctimaiyyətlə Əlaqələr departamentinin direktoru Hökümə Kərimova müsabiqə qaliblərini təbrik edərək belə bildirib: "Nar" olaraq, Azərbaycan dilinin qorunması və inkişafı bizim üçün böyük əhəmiyyət kəsb edir. Dilimiz milli kimliyimizin, mədəniyyətimizin və tarixi irsimizin əsas bir hissəsidir. Azərbaycan dilindəki zəngin söz ehtiyatı və ifadə imkanları, onun nə qədər dərin və çoxşaxəli olduğunu göstərir. "Ana dilində hekayəni danış" natiqlik çempionatına verdiyimiz dəstək, bu məqsədin həyata keçirilməsinin bir nümunəsidir.

Düzgün və təsirli dil istifadəsi yalnız şəxsi ünsiyyətdə deyil, həm də professional iş mühitində çox əhəmiyyətlidir. Effektiv kommunikasiya bacarıqları, iş dünyasında qarşılıqlı anlaşmanı artırır və peşəkarlığı möhkəmləndirir. Bu cür tədbirlərdə iştirak etməklə, iştirakçılar yalnız dil bacarıqlarını inkişaf etdirməklə qalmır, həm də gələcəkdə iş həyatında uğur qazanmaq üçün lazım olan bacarıqları inkişaf etdirirlər". Qeyd edək ki, "Ana dilində hekayəni danış" natiqlik çempionatı dörd ildir, təşkil edilir və bu vaxta qədər müsabiqəyə 250-dən çox iştirakçı qatılıb. "Nar" ana dilimizin inkişafına təkan verən müxtəlif layihələrlə yanaşı, son iki ildir, natiqlik çempionatının keçirilməsinə də öz dəstəyini göstərir. Mobil operatorun korporativ sosial məsuliyyət sahəsində gerçəkləşdirdiyi layihələr haqqında ətraflı məlumatı nar.az səhifəsindən əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## HƏFTƏ REYTİNQ

### Həftənin MƏĞLUBİYYƏTİ



Qadın güləşi üzrə Azərbaycan yığmasının üzvü Mariya Stadnik Paris Yay Olimpiya Oyunlarında mübarizə aparıb. O, ilk görüşünü almaniyalı Anastasiya Blavyasa qarşı keçirib. Stadnik bu görüşdə 6:2 hesablı qələbə əldə edib. Mariya Stadnik 1/4 finalda Monqolustan təmsilçisi Otqonjarqal Dolqorjavla görüşüb. O, rəqibinə 3:4 hesabı ilə uduzub.

### Həftənin TƏYİNATI



Vətən Müharibəsi Qəhrəmanı, general-mayor Kənan Seyidovun Əlahiddə Ümumqoşun Ordusunun komandanı vəzifəsinə təyin edilməsi ilə bağlı məlumatlar yayılsa da, bu, öz rəsmi təsdiqini tapmamışdı. K.Seyidovun Müdafiə Nazirliyində 2024-cü ilin birinci yarımilinin yekunlarına dair geniştərkibli kollegiya iclasında Əlahiddə Ümumqoşun Ordu Komandanı olaraq iştirakı ilə məlumat təsdiqlənmiş olub.

### Həftənin NAMİZƏDİ



ABŞ-nin vitse-prezidenti Kamala Harris rəsmi olaraq Demokratlar Partiyasından prezidentliyə namizəd olduğunu açıqlayıb. O, bunu Filadelfiyada tərəfdarları qarşısında çıxış edərkən elan edib. "Mən bu gün qürurla elan etmək üçün sizin qarşınızda dururam. Artıq rəsmi olaraq Demokratlar Partiyasından ABŞ prezidentliyinə namizədəm", - Harris bildirib.

### Həftənin ŞİKAYƏTİ



Ukraynalı milyarder Dmitri Firtaş 2024-cü ildə iş adamına tətbiq edilən şəxsi sanksiyalara görə ölkə Prezidenti Volodimir Zelenskiyə qarşı iddia qaldırıb. Respublika Ali Məhkəməsi milyarderin Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının sanksiyaların tətbiqi barədə qərarını qüvvəyə mindirən prezidentin 24 iyun 2024-cü il tarixli fərmanına etiraz etdiyi iddiasını baxılmaq üçün qəbul edib.

### Həftənin QARŞILANMASI




Ankarada Rusiya ilə Qərb ölkələri arasında genişmiqyaslı məhbus mübadiləsi çərçivəsində 8 nəfər Rusiyaya təhvil verilib. Moskvanın Vnukovo hava limanında Rusiya Prezidenti Vladimir Putin onları şəxsən qarşılayıb və söhbət edib. Mübadilə prosesi çərçivəsində Rusiyaya qaytarılanlar arasında Qərbdə Rusiya xeyrinə casusluqda ittiham olunan Anna və Artyom Dultsevlər də var. Putinin cütlüyün uşaqları ilə ispanca danışması müzakirələrə səbəb olub.

### Həftənin İSTƏYİ



SSRİ Xalq artisti Alla Puqaçova bu ilin sonunadək Rusiyada böyük konsert proqramı ilə çıxış etmək istəyir. Sənətkar avqustun sonlarında uşaqları ilə birlikdə ölkəyə gələcək və bununla bağlı danışıqlar aparacaq. Həmçinin şoumen həyat yoldaşı Maksim Qalkinin "xarici agent" statusu ilə bağlı məsələni həll etməyə çalışacaq.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU




**Britaniyalı Lina Nielsen qadınlar arasında 400 metr məsafəyə maneələrlə qaçış yarışının birinci yarımfinalında məğlub oldu**

“

# Pomidor niyə ucuzlaşmır?!

**Akif Nəsirli,**
Liberal İqtisadçılar Mərkəzinin rəhbəri

Elə şərait yaradılmalıdır ki, Bakı şəhərinin ətrafında bir neçə topdansatış meyvə bazarı olsun.

Səh. 5

## STATİSTİKA



■ **Bu ilin yanvar-iyul aylarında Azərbaycan Dövlət Neft Fondu (ARDNF) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan 3 milyard 607,7 milyon ABŞ dolları məbləğində gəlir əldə edib.**

Bu barədə Fonddan məlumat verilib. Bildirilir ki, bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 551 milyon ABŞ dolları və yaxud 13,23 % azdır.




Səh. 7

# Bəzi dərsliklər yenilənəcək